№ 30 (1025) 26 iyul - 1 avqust 2018-ci il

www.iqtisadiyyat.com

# İQTİSADİYYAT

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiymәti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

# Azərbaycan ilə Fransa arasında əməkdaşlığın daha genişmiqyaslı perspektivləri müzakirə edildi



**Fransa Respublikasının Prezidenti Emmanuel Makronun dəvəti ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 19-20-də Fransada səfərdə olmuşdur.**

Səfər çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 19-da Parisdə Fransa Beynəlxalq Əlaqələr İnstitutunun icraçı sədri Tyerri de Montbrial, "Naval" qrupunun sədri və baş direktoru Erve Giyu, Fransa Senatının sədri Jerar Larşe, "Total" şirkətinin sədri və baş icraçı direktoru Patrik Puyane, "Airbus" şirkətinin Avrasiya üzrə vitse-prezidenti Silver Delonay, "SUEZ" qrupunun baş icraçı direktoru Jan Lui Şassod, "Wilmotte & Associés Architectes" şirkətinin icraçı direktoru xanim Borina Andriye, iyulun 20-də "Thales International" şirkətinin baş vitse-prezidenti Rafael Eskinazi, "Rothschild and Co" şirkətinin Müşahidə Şurasının sədri Devid de Rotşild, "IVECO France" şirkətinin prezidenti, "IVECO Global Bus"un rəhbəri Silvan Blez, "CIFAL" qrupunun prezidenti Jil Remi, "Bouygues Travaux Publics" şirkətinin baş icraçı katibinin müavini Mark Adler, Fransanın SADE şirkətinin prezidenti Patrik Lölo və Fransa Milli Assambleyasının sədri Fransua de Rüji ilə görüşmüşdür.

* * * *

İyulun 20-də Parisdə, Yelisey Sarayında Fransa Respublikasının Prezidenti Emmanuel Makronun adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə nahar verilib.

Müzakirələr zamanı Azərbaycan ilə Fransa arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi, energetika, ekologiya, nəqliyyat, təhlükəsizlik, mədəni və digər sahələrdə uğurla inkişaf etdiyi bildirildi, Azərbaycanda Fransız Liseyinin və Azərbaycan-Fransız Universitetinin fəaliyyət göstərməsindən məmnunluq ifadə olunmuşdur.

Söhbət zamanı Azərbaycan-Avropa İttifaqı əlaqələri ətrafında fikir mübadiləsi aparılmışdır.

Vurğulanmışdır ki, Fransanın aparıcı şirkətləri Azərbaycanda fəaliyyətlərini daha da genişləndirməkdə maraqlıdır.

Dövlətimizin başçısı bu səfər çərçivəsində Fransanın 11 şirkətinin nümayəndələri ilə səmərəli görüşlərin aparıldığını qeyd etmişdir. Bu görüşlərin ölkələrimiz arasında iqtisadi əməkdaşlıq üçün böyük perspektivlərə yol açdığı vurğulanmışdır. Prezident İlham Əliyev demişdir ki, Azərbaycan ilə Fransa şirkətləri arasında 2 milyard dollardan çox dəyərində müqavilələr imzalanıb. Bu müqavilələr reallaşdırıldığı təqdirdə onların həcmi daha da artacaq. Həmçinin enerji təhlükəsizliyi məsələsi müzakirə olundu, "Cənub Qaz Dəhlizi" layihəsinin uğurla icra edildiyi vurğulanmışdır. Neft-qaz sektoru, infrastruktur, nəqliyyat, kosmik sənaye, hava nəqliyyatı, metro tikintisi, hərbi-texniki sahələrdə əməkdaşlıq məsələləri də müzakirə olunmuşdur.

Söhbət zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunulmuşdur. Prezident İlham Əliyev bu münaqişənin həlli ilə bağlı Azərbaycanın mövqeyi barədə ətraflı məlumat vermişdir. Ümidvarlıq ifadə olunmuşdur ki, ATƏT-in Minsk qrupunun həmsədr ölkəsi olan Fransanın Prezidenti şəxsən bu münaqişənin həllində fəal iştirak edəcək.

sı və mübadiləsi mərasimi olmuşdur.




# Latviya əhalisi Azərbaycan məhsullarının əldə edilməsində çox maraqlıdır

**Latviyada Azərbaycan Ticarət Evinin açılması önəmli hadisədir. Artıq 120 ton kənd təsərrüfatı məhsulu Latviyaya göndərilib. Latviya əhalisi Azərbaycan məhsullarının əldə edilməsində çox maraqlıdır.**

Bu sözləri AZƏRTAC-a müsahibəsində Latviyanın Azərbaycandaki səfiri Yuris Maklakovs deyib.

Səfir Latviya əhalisinin Azərbaycan məhsullarının yüksək keyfiyyətini gördükcə bu mallara tələbatın daha da artdığını bildirib. O deyib: "Bu, Azərbaycanın Avropa İttifaqında açılan ilk Ticarət Evidir. Bunun böyük perspektivləri var. Azərbaycan məhsulları Latviyadan digər Baltikyanı ölkələrə də paylanacaq. Biz Latviya məhsullarının Bakıda da təqdim edilməsinə çalışırıq. Düşünürəm ki, geniş seçim imkanının yaradılması daha məqsədəuyğun olar. Bir daha qeyd etmək istərdim ki, ölkələrimiz arasında nəinki siyasi, eləcə də iqtisadi əlaqələr sürətlə inkişaf edir".

Ticarət Evinin açılmasının ölkələrimizin ticarət dövriyyəsinin həcminə də müsbət təsir göstərəcəyini söyləyən Y.Maklakovs turizm agentliyinin həmin Evdə təmsil olunacağını diqqətə çatdırıb: "Bununla da hər iki ölkədən axın edən turistlərin sayı əhəmiyyətli dərəcədə artacaq. Latviyanın yerli özünüidarəetmə orqanının rəhbəri sentyabrın sonlarında Bakıya səfər edəcək. Biz səfər çərçivəsində mədəniyyət, incəsənət, turizm və digər sahələrdə əməkdaşlığın yollarını araşdıracağıq. Biz tələbələrin mübadiləsini də həyata keçirəcəyik".

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, Latviyanın sabiq Prezidenti Vayra Vike Freyberqanın ölkəmizə mütəmadi səfər etdiyini deyən səfir mərkəzin təşəbbüslərinin dünyada sülhün, təhlükəsizliyin, mədəniyyətlərarası dialoqun möhkəmlənməsində önəmini vurğulayıb. Parlamentlərarası əlaqələrimizin yüksək səviyyədə olduğunu deyən diplomat hər iki parlamentdə işçi qruplarının bir-biriləri ilə fəal işlədiklərini qeyd edib. O, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr edilmiş qeyri-rəsmi futbol oyunlarında latviyalı deputatların da iştirak etdiyini bildirib, keçirilən mütəmadi görüşlərdə əməkdaşlığın perspektivlərinin müzakirəsinin hər zaman prioritet olduğunu vurğulayıb.



## Bakı MDB şəhərlərinə yay səyahətlərinin reytinqində liderdir

“TurStat” analitik agentliyi rusiyalı turistlərini yay səyahətləri üçün MDB ölkələrinin populyar şəhərlərinin reytinqini təqdim edib.
MDB şəhərlərinin reytinqi 2018-ci ilin yayında turist səfərlərinin populyarlığının təhlilinə əsasən tərtib edilib.
Bakı, Minsk, Almatı, Astana, Bişkek, Daşkənd, Kişineu, Düşənbə və Aşxabad 2018-ci ilin yayında rusiyalı turistlərin MDB-də üz tutduqları şəhərlərin onluğunda yer alıb.
Agentliyin məlumatına görə, turistlər MDB şəhərlərinə yayda orta hesabla ikigünlük gəlir, sonra Bakıda Xəzəryanı kurortlarda, Belarusda Naroç gölündə, Almatıda Çimbulaq dağ kurortunda, Qazaxıstanda Borovoye kurortunda, Qırğızıstanda İssık-Kul gölündə dincəlirlər. Rusiyalı turistlər MDB ölkələrinin şəhər və kurortlarında bir gün qalmağa və yeməyə orta hesabla 50-100 dollar məbləğində pul xərcləyirlər. Ən ucuz yay turları Kişineu və Bişkekdir, habelə həftəsonu və şopinq-turlar arasında Bakı və Astana liderlik edir.

## Azercell Telekom-un Barama mərkəzinin dəstəyi ilə Azərbaycanda A’Startap Sammiti keçirildi



“Azercell Telekom” MMC-nin Barama İnnovasiya və Sahibkarlıq Mərkəzinin dəstəyi ilə ölkəmizdə daha bir layihə reallaşdı. “Aforyouth” təşkilatı ilə birlikdə Azercell və “PAŞA” Bankın baş sponsorluğu ilə 18-20 iyul tarixlərində Bakıda “A’Startap Sammiti 2018” və intensiv seminar keçirildi. 3 günlük tədbir sahibkarların, gənc liderlərin biznes və yaradıcılıq bacarıqlarının artırılmasına dəstək məqsədilə təşkil edildi. Tədbirin ilk günü işgüzar əlaqələrin qurulmasına həsr olundu: beynəlxalq arenaya çıxmağa can atan 45 yerli sahibkar bir-birini tanımaq və gələcək potensial tərəfdaşlarla əlaqələr qurmaq imkanı əldə etdi. Komandanın formalaşmasından sonra müxtəlif biznes metodlarından istifadə edərək problemin müəyyənləşdirilməsi həyata keçirildi. Sammitin ikinci günü gənc startapları narahat edən problemlərin müzakirəsinə və onların həlli istiqamətində müəyyən tövsiyyələrin verilməsinə həsr olundu. Tədbirin sonuncu günü 20 iyulda isə Azərbaycanın biznes icması üçün açıq gün təşkil olundu və iştirakçılar son iki gündə formalaşdırdıqları startap ideyalarını müvafiq şirkətlərə təqdim etdilər.
Beləliklə, qaliblərin adları açıqlandı: «Studentsy» layihəsi ilə Ilkin Bayramlı, Nəriman Məmmədli, Naseh Bədəlov 1-ci yerin qalibi oldular. 2-ci yerə “BestFit» layihəsi ilə Valid Məmmədli, Nərmin Nəsirova, Xəyalə Mirzəyeva, 3-cü yerə isə «Rise in rice» Camal Əhmədov, Ləman Əsədli layiq görüldülər.
Qalib komandalara gələcəkdə Barama Mərkəzində ideyaları üzərində işlərini davam etmək şansı yaradıldı və əlavə olaraq da Start Coworking Mərkəzindən hədiyyə şəklində aşağıdakılar təqdim olundu:
**1-ci yer - bir aylıq ödənişsiz ofis sahəsi (bütün xidmətlər daxil, 1nəfər), 2-ci yer - bir həftəlik ödənişsiz ofis sahəsi (bütün xidmətlər daxil, 1 nəfər), 3-cü yer - 3 günlük ödənişsiz ofis sahəsi (bütün xidmətlər daxil, 1nəfər).**

## Azercell sosial mediada da liderdir!

*Şirkət yenidən “Socially Devoted” sertifikatına layiq görülüb*




Ölkədə sosial şəbəkələr üzərindən və onlayn rejimdə ilk müştəri xidmətləri təqdim edən “Azercell Telekom” MMC yüksək xidmət səviyyəsini və peşəkarlığını bir daha sübut edib. 2018-ci ilin birinci rübündə rəsmi Facebook səhifəsində istifadəçilərin verdiyi sualların 100%-ni operativ şəkildə cavablandırdığına görə beynəlxalq “Socialbakers” şirkəti tərəfindən “Socially Devoted” sertifikatına layiq görülüb. Bu nailiyyəti daha da təqdirəlayiq edən məqam Azercell-in rəsmi Facebook səhifəsində 440 000-dən artıq izləyici sayıdır və bu rəqəm böyümə dinamikasına malikdir. Şirkət Twitter sosial şəbəkəsində də abunəçilərinin bütün suallarını cavablandıraraq, bu göstərici ilə növbəti dəfə digər mobil operatorları geridə qoyub.
Şirkətin Twitter, İnstagram rəsmi səhifələri daxil olmaqla sosial şəbəkələrdə toplam 600 000-ə yaxın istifadəçisi var. Onlar 24/7 rejimində yüksək keyfiyyətli xidmətdən yararlana bilir və 6 fərqli sosial şəbəkənin imkanlarından istifadə edirlər. Azercell-in tətbiq etdiyi yeniliklər, tarif və kampaniyalar, keçirilən sosial layihələr və xidmətlər haqqında ən son xəbərləri almaqla yanaşı sosial şəbəkələr üzərindən şirkətlə əlaqə quran abunəçi ən qısa zamanda ehtiyacı olan məlumatı əldə edir, müraciətinin həllini tapır.

*Qeyd edək ki, “Socialbakers” (http://www.socialbakers.com) dünyada sosial şəbəkələrin monitorinqini apararaq, 75 ölkədən çox olan minlərlə abunəçiyə xidmət göstərir. Şirkət müştəri suallarının cavablandırılması səviyyəsi üzrə yüksək göstəriciyə imza atan şirkətləri mükafatla təltif edir.*

## ATABANK SİNQAPURDA DA “BİR ADDIN ÖNDƏ” OLDUĞUNU TƏSDİQLƏYİB

**AtaBank-ın bu il müştərilərinə təqdim**



**etdiyi “AtaNet” Mobil Bankçılıq əlavəsi 12.07.2018-ci il tarixində Singapurda “Bank və maliyyə sektorunda ən yaxşılarını tanıyaq” şüarı altında keçirilən tədbirdə “Asian Banking & Finance Wholesale Banking” Awards 2018 mükafatına layiq görülüb.**

2012-ci ildən etibarən hər il keçirilən tədbirdə Asiya ilə yanaşı dünyanın ən iri banklarının və maliyyə qurumlarının nümayəndələri iştirak edib.
Asiya ölkələrinin qabaqcıl banklarının və maliyyə qurumlarının təqdim etdiyi yeniliklər arasında ən yaxşılar Deloitte, PricewaterhouseCoopers, KPMG və Ernst and Young kimi “böyük dörtlük” adlanan audit şirkətlərinin nümayəndələrindən ibarət juri tərəfindən seçilib.
AtaBank-ın rəsmi nümayəndə heyəti bir neçə gün ərzində müxtəlif tədbirlərdə iştirak edərək AtaNet Mobil Bank əlavəsinin bütün imkanları, texniki məqamları və təhlükəsizliyi ilə bağlı təqdimatlar keçirib. Nəticə etibarı ilə 40-dan çox ölkədən iştirakısı olan və HSBC, Standard Chartered, Bank of China, Citibank kimi nəhəng banklar və maliyyə qurumları arasında müasir dövrün ən önəmli və ən çox diqqət ayrılan təhlükəsizlik sahəsində ən təhlükəsiz və ən yaxşı Mobil Bank əlavəsi kimi AtaNet seçilərək “Domestic Technology & Operations Bank of the Year” nominasiyası üzrə qalib gəlib və mükafata layiq görülüb.



Mükafatlandırma mərasimində AtaBank ASC-nin İdarə Heyəti Sədrinin birinci müavini Etibar Babaşlı çıxış edərək qeyd edib ki: Biz AtaBank olaraq daim şüarımız kimi “Bir Addım öndə” olmağa çalışmış və bu şüara layiq olmaq üçün hər zaman yeniliklər tətbiq etmişik. Son yeniliklərdən biri də artıq müştərilərin istifadəsinə təqdim edilmiş “AtaNet” İnternet və Mobil Bankçılıq xidmətidir. Tədbirə gələn zaman biz əmin idik ki, bu mükafatı qazanan biz olacağıq. Çünki AtaNet ən qabaqcıl dünya praktikasına uyğun olaraq zamandan və məkandan asılı olmayaraq əməliyyatların rahat və sürətli aparılması, təhlükəsizliyi və bir çox üstünlükləri ilə rəqiblərindən seçilir. Gələcəkdə AtaNet-in bazardakı yerinin qorunması və möhkəmləndirilməsi üçün komandamız bütün gücü ilə çalışacaq və yaxın zamanlarda AtaNet bir çox yeni imkanlarını da müştərilərinin istifadəsinə təqdim edəcək”. Etibar Babaşlı bu mükafata məhz AtaBank – ın layiq görüldüyü üçün fəxr etdiyini və bu uğurun nəinki AtaBank-ın həm də ölkəmiz Azərbaycanın uğuru olduğu üçün qürur duyduğunu xüsusi ilə qeyd edib.
Bununla yanaşı səfər zamanı AtaBank-ın rəhbərliyi bir sıra qabaqcıl Asiya banklarının nümayəndələri ilə işgüzar görüşlər keçirib və gələcəkdə banklar arasında əməkdaşlıq etməklə bağlı müzakirələr aparıb. Xatırladaq Asiya maliyyə bazarına xüsusi əhəmiyyət verən AtaBank 2017-ci ildə də Çin Respublikasının ödəniş sistemləri nəhəngi Union Pay International ilə də əməkdaşlıq müqaviləsi imzalamışdır.

## “Bakcell”dən “Təhsil Avtobusu-2018” Yay Məktəbinin keçirilməsinə dəstək



Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi Bakcell şirkəti 17-23 iyul 2018-ci il tarixləri arasında Azərbaycan Respublikası Təhsil Nazirliyinin təşkilatçılığı ilə həyata keçirilən “Təhsil Avtobusu-2018” Yay Məktəbinə dəstək göstərdi.
“Təhsil Avtobusu” Yay Məktəbi “Azərbaycan üçün Öyrət” Milli Təhsil Proqramının Azərbaycanın müxtəlif şəhər və rayonlarını əhatə edən təhsil marafonudur.
“Təhsil Avtobusu - 2018” Bakı şəhərindən yola düşərək Bakı-Quba-Masallı-Şəmkir-Şəki-Qəbələ-Bakı marşrutu üzrə səyahət edir. Yay məktəbinin məqsədi bölgələrdə şagirdlərin şəxsi inkişafına stimul vermək, onların həyata fərqli baxış və dünyagörüşünün formalaşmasına təsir etmək, dərsə marağının artırılmasına şərait yaratmaqdır. Layihə çərçivəsində ölkənin 5 bölgəsindəki həm modul tipli ucqar kənd, həm də orta məktəblərinin akademik göstəriciləri zəif və orta olan 7-8-9-cu sinif şagirdləri hər biri 1 gün olmaqla təlimçi və ekspertlər tərəfindən keçiriləcək fərdi-inkişaf təlimləri və intellektual yarışlarda iştirak edəcək.
Sosial məsuliyyətli bir şirkət olaraq, Bakcell şirkəti uşaqların inkişafı və təhsilini xüsusi diqqət mərkəzində saxlayır. Şirkətin həyata keçirdiyi “Bakcell Stars” adlanan Korporativ Sosial Məsuliyyət proqramı çərçivəsində hər il yüzlərlə uşağın təhsilinə və sosial rifahının yaxşılaşdırılmasına töhfə verilir. Bakcell şirkəti gənclərin təhsil almasına və karyera qurmasına dəstək göstərmək və beləliklə Azərbaycan gənclərinin parlaq gələcəyinə öz töhfəsini verməyə yönəlmiş uğurlu fəaliyyətini davam edəcək.

# Xalqın xoşbəxt gələcəyinə xidmət edən siyasət



**Azərbaycan xalqı, Azərbaycan cəmiyyəti, Azərbaycan dövləti bu ilin aprel ayının 11-də daha bir tarixi ana şahidlik etdi, onun canlı, fəal iştirakçısı oldu. Həmin ölkədə növbədənkənar prezident seçkiləri keçirildi və alternativ əsaslarla baş tutan bu demokratik, ədalətli seçki yarışmasında ölkə Prezidenti cənab İlham Əliyev yenidən Azərbaycan xalqının mütləq əksəriyyətinin səsini əldə edərək, dövlət başçısı seçildi. Cəmi 6 gün sonra, aprelin 17-də Konstitusiya Məhkəməsinin Plenumu prezident seçkilərinin nəticələrinə dair Mərkəzi Seçki Komissiyasının protokolunun Seçki Məcəlləsinin müddəalarına uyğun gəldiyini, İlham Əliyevin səslərin 86,02 faizini topladığı üçün prezident elan edilməsi ilə bağlı qərarını bəyan etdi. Bunun səhərisi günü, aprelin 18-də Prezident İlham Əliyevin Milli Məclisdə (MM) tarixi andiçmə mərasimi keçirildi. Qeyd edək ki, artıq ikinci dəfə idi ki, Milli Məclis belə bir tarixi ana şahidlik edirdi. Düz 5 il öncə, 2013-cü ilin prezident seçkiləri ilə bağlı prezidentin andiçmə mərasimi də məhz parlamentdə keçirilmişdi və bu, dövlət başçısının Milli Məclisə nə qədər böyük dəyər verdiyinin daha bir əyani sübutudur. Prezident əlini Azərbaycan Respublikası Konstitusiyasının üzərinə qoyaraq and içdi:**

**- Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirərkən Azərbaycan Respublikasının Konstitusiyasına əməl edəcəyimə, dövlətin müstəqilliyini və ərazi bütövlüyünü qoruyacağıma, xalqa ləyaqətlə xidmət edəcəyimə and içirəm!**

**Sonra prezident müqəddəs Qurani-Şərifə əl basaraq and içdi:**

**- Əlimi Qurani-Şərifə basaraq and içirəm: Azərbaycan xalqının əsrlər boyu yaratdığı milli mənəvi dəyərlərə və ənənələrə sadiq qalacağam, onları daim uca tutacağam.**

**Daha sonra təzim edərək, Azərbaycanın dövlət bayrağını öpdü və geniş nitq söylədi.**

**O, çıxışında seçkilərdə göstərilən yüksək etimada görə Azərbaycan xalqına dərin təşəkkürünu bildirərək qeyd etdi ki, həmişə Azərbaycan xalqının dəstəyini hiss edib və bu dəstək ona güc verir.**

**«Mən bu dəstəyə arxalanıram və xalqı bir daha əmin etmək istəyirəm ki, bundan sonra da xalqa və Vətənə ləyaqətlə xidmət edəcəyəm. Prezident seçkiləri Azərbaycan xalqının iradəsini əks etdirib. Azərbaycan xalqı görülən işlərə yüksək qiymət vermişdir, görülən işlərə səs vermişdir. İnkişafa, tərəqqiyə, təhlükəsizliyə, gələcək inkişafımıza səs vermişdir. Seçkilər ədalətli və şəffaf şəkildə keçirilmişdir. Seçkilərdən əvvəl yerli və beynəlxalq təşkilatlar tərəfindən keçirilmiş rəy sorğuları, seçkilər günü yenə də beynəlxalq və yerli təşkilatlar tərəfindən keçirilmiş "exit-poll"lar seçkilərin rəsmi nəticələri ilə üst-üstə düşür. Bu, bir daha onu göstərir ki, seçkilər xalqımızın iradəsini, onun fikirlərini əks etdirir», - deyərək, cənab prezident son 15 il ərzində böyük uğurlara imza atıldığını, Azərbaycan xalqının təhlükəsizlik, sabitlik şəraitində yaşadığını vurğuladı.**

### TƏBRİKLƏR

Prezident seçkiləri və onun nəticələri ilə bağlı bəzi daxili və xarici antiazərbaycançı qüvvələr öz «bədbin» proqnozlarını versələr də, yenə də hesabları pozuldu, «proqnozlar»ı özünü bu dəfə də doğrultmadı. Xüsusilə də, ATƏT-in və Avropa Şurasının seçki missiyaları prezident seçkilərini «qara rəng»də təsvir etməyə, seçkiləri və onun nəticələrini şübhə altına almağa salsa da, öncədən planlaşdırdıqları niyyətləri, məqsədləri baş tutmadı, hazırladıqları hesabat(lar) heç bir effekt, reaksiya doğurmadı, əksinə, Azərbaycan cəmiyyətinin sərt təpkisinə səbəb oldu. Ən əsası onlara verilən ən sərrast cavab və onlara vurulan ən böyük zərbə elə öz strukturlarından gəldi. İstər ATƏT strukturlarından, istər AŞPA təsistalarından, istərsə də Avropa İttifaqı rəhbərliyindən İlham Əliyevə ünvanlan təbrik məktubları gəldi. Həmçinin, Azərbaycana prezidentinə dünyanın bütün dövlət başçıları, xüsusilə, dünyanın əsas gücləri sayılan dövlətlərin rəhbərlərindən - Rusiya Prezidenti Vladimir Putin, ABŞ Prezidenti Donald Tramp, Çin dövlətinin rəhbəri Si Cinpin tərəfindən təxminən eyni günlərdə təbrik məktubları ünvanlandı, onlar öz məktublarında İlham Əliyevlə, Azərbaycanla əməkdaşlıq niyyətlərini bir daha bəyan etdilər.

**Donald Tramp:** «...Azərbaycan və Birləşmiş Ştatlar mürəkkəb regional çağırışların həlli üçün birgə işləyərək sıx tərəfdaşlıq edirlər. Təhlükəsizlik və terrorizmlə mübarizə sahəsində əməkdaşlığınızı, habelə uzunmüddətli ticarət əlaqələrimizi dəyərləndirirəm. Enerji sahəsində illərlə davam edən əməkdaşlığımız bu il inanılmaz bir nailiyyət kimi, Avropanın zəruri enerji təhlükəsizliyini təmin edəcək ilk qazın Cənub Qaz Dəhlizi vasitəsilə nəqli sayəsində zirvəyə yüksəlib. Qarşıdan gələn aylar Dağlıq Qarabağ münaqişəsinin həlli üçün imkanlar açacaq, bu isə ABŞ-Azərbaycan əməkdaşlığının genişləndirilməsinə daha yaxşı şərait yaradacaqdır. ATƏT-in Minsk Qrupunun həmsədri kimi Birləşmiş Ştatlar bu münaqişənin sülh yolu ilə dayanıqlı həlli üçün Sizinlə əməkdaşlığı səmimiyyətlə arzulayır...».

**Vladimir Putin:** «...Ölkəniz iqtisadi, sosial, elmi-texniki, humanitar və digər sahələrdə sanballı uğurlar qazanıb. Azərbaycan Respublikasının beynəlxalq aləmdə çox böyük nüfuzu var. Rusiya-Azərbaycan münasibətlərinin yüksək səviyyəsini məmnuniyyətlə qeyd edirəm. Dövlətlərimiz müxtəlif istiqamətlərdə səmərəli əməkdaşlıq edir, regional və qlobal gündəlikdə olan mühüm məsələlərin həllində fəal qarşılıqlı əlaqə saxlayırlar. Əminəm ki, ölkələrimizin dost xalqlarının rifahı, beynəlxalq sabitliyin və təhlükəsizliyin təmin edilməsi naminə Rusiya ilə Azərbaycan arasında strateji tərəfdaşlığı bundan sonra da hər vasitə ilə möhkəmləndirəcəyik...».

**Si Cinpin:** «...Son illərdə Azərbaycanın iqtisadiyyatı sürətlə inkişaf edir, cəmiyyətdə sabitlik və həmrəylik müşahidə olunur, Azərbaycanın beynəlxalq arenada statusu və təsiri gündən-günə artır. Azərbaycanın yaxın dostu kimi Çin buna ürəkdən sevinir. Mən Çin-Azərbaycan münasibətlərinin inkişafına böyük diqqət yetirirəm, iki ölkənin və onların xalqlarının xeyrinə qarşılıqlı faydalı əməkdaşlığın bütün sahələrində yeni uğurlara nail olmaq üçün Sizinlə birgə səy göstərməyə hazıram».

* * *

Artıq prezident seçkilərinin 100 günü geridə qalır. İlham Əliyevin yeni prezidentlik dövrünün 100 günü başa çatır. Qeyd edək ki, dünyanın əksər ölkələrində prezidentin 100 günü məsələsinə çox böyük önəm və diqqət yetirilir. Həmin müddət bir növ prezident üçün sınaq müddəti sayılır və bundan çıxış edilərək, onun növbəti müddətdə hansı addım(lar) ata biləcəyinin konturları cızılmağa başlanır. Odur ki, Azərbaycanda da artıq prezidentin 100 günlüyü məsələsi ənənəyə çevrilməkdə, siyasi leksikonumuzda özünə yer qazanmaqdadır.

Bəs, görəsən, dövlət başçısının 100 günü nələrlə yadda qaldı, ölkəmiz, xalqımız, dünyamız üçün önəmli olan hansı məsələlərlə xarakterik oldu?

## Prezidentin 100 günü...

Əvvəla, onu qeyd etmək yerinə düşər ki, dövlət başçısı prezidentliyinin ilk günündən yenə də öz ənənəsinə, öz taktika və strategiyasına sadiq qaldığını, onun üçün dövlət və xalq mənafeyindən, dövlət və milli maraqlardan başqa bir nəsnə olmadığını nümayiş etdirdi. İlk günündən yenə dövləti, xalqı ilə birgə oldu. Səfərlərdə, açılışlarda iştirak etdi, Azərbaycan dövləti və cəmiyyətinin həyatı, taleyilə bağlı bir çox önəmli sərəncamlara, fərmanlara imza atdı.

* * *

**Yeni hökumət, yeni nəfəs, yeni kadrlar...**

Dövlət başçısı ilk addımlardan biri kimi və Konstitusiyanın tələblərindən irəli gələrək, Artur Rasi-zadənin başçılıq etdiyi hökumətin - Nazirlər Kabinetinin səlahiyyətlərinə xitam verdi. Bunun davamı olaraq, yeni hökumətin, Nazirlər Kabinetinin yeni tərkibinin formalaşdırılması ilə bağlı daldabal sərəncamlar imzaladı. Ölkə başçısı Artur Rasi-zadəyə Nazirlər Kabinetindəki fəaliyyəti dövründə, eləcə də Azərbaycan dövləti qarşısındakı xidmətlərinə görə minnətdarlığını ifadə etdi. Aprelin 21-də Milli Məclisin növbəti plenar iclasında isə ölkə başçısınım təqdimatı ilə "Novruz İsmayıl oğlu Məmmədovun Azərbaycan Respublikasının Baş naziri vəzifəsinə təyin edilməsinə razılıq verilməsi" haqqında məsələyə baxıldı, müzakirələrdən sonra məsələ səsə qoyularaq qəbul edildi. İclasda çıxış edən Baş nazir Novruz Məmmədov ona göstərilən bu yüksək etimada görə Azərbaycan Prezidenti İlham Əliyevə dərin minnətdarlığını bildirdi. O, sonra «Baş nazir vəzifəsi çox çətin, lakin şərəfli vəzifədir, dövlətimizin başçısı İlham Əliyev ilə birlikdə işləmək çox şərəflidir», - dedi.

Elə həmin gün, apelin 21-də prezident "Azərbaycan Respublikası Nazirlər Kabinetinin yeni tərkibi haqqında" Sərəncam imzaladı. İki gün sonra, aprelin 23-də isə «Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 21 aprel tarixli Sərəncamına əlavələr edilməsi barədə» Sərəncam imzalandı. Bununla da yeni hökumətin tərkibinin formalaşdırılması prosesi başa çatdı və əksəriyyəti yeni kadrlardan ibarət yeni Nazirlər Kabineti baş nazir Noruz Məmmədovun sədrliyi altında öz fəaliyyətinə start verdi.

* * *

### Regionlara səfərlər və ya «Şimal»dan Naxçıvana və «Qərb»ə uzanan səfər xəritəsi...

Dövlət başçısı may ayının 4-də ölkənin Şimal bölgəsinə, Xaçmaz və Xızı rayonlarına səfər etdi və həmin bölgələrdə bir sıra açılışlara qatıldı. Konkret olaraq, başlanğıcını Giləzi-Xızı yolunun 34-cü kilometrliyindən götürən və əsaslı şəkildə yenidən qurulan Fındığan kəndinədək olan yolun açılışına qatıldı. Bununla yanaşı, "Xızı şəhərində və Altıağac qəsəbəsində içməli su təchizatı sistemlərinin yenidən qurulması və kanalizasiya şəbəkəsinin yaradılması" layihəsinin yekunlaşması ilə bağlı keçirilən mərasimdə iştirak etdi, Gəndob-Xaçmaz-Yalama-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun 24-48 kilometrlik hissəsini təşkil edən Xaçmaz-Xudat avtomobil yolunun açılışını gerçəkləşdirdi. Eyni zamanda, Xaçmaz şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin istismara verilməsi mərasimində və "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin Xaçmaz idarəsinin inzibati binasının açılışında iştirak etdi. Həmçinin, "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Xaçmaz filialının, o cümlədən Çarxı-Qalağan-Hacılar-Xanlıqoba-Sayad-Məmmədxanlı avtomobil yolunun yenidənqurma və bərpadan sonra açılışını etdi.

Cəmi 12 gün sonra, mayın 16-da Naxçıvan Muxtar Respublikasına səfər etdi, Əlahiddə Ümumqoşun Ordusunun "N" saylı hərbi hissəsində, Dövlət Sərhəd Xidmətinin Naxçıvan şəhər Qaraçuq ərazi dairəsində Əmiraslan Əliyev adına Sərhəd Dəstəsində yaradılan şəraitlə tanış oldu. Həmin gün Naxçıvan şəhər Qaraxanbəyli inzibati ərazi dairəsində 480 şagird yerlik 6 saylı tam orta məktəbin, Naxçıvan şəhər Təmizləyici Qurğular Kompleksinin, Müəllimlər İnstitutunun yeni binasının, "Şərur şəhər və ətraf kəndlərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsinin birinci mərhələsinin açılışına qatıldı. Bildirildi ki, layihə üzrə tikinti işlərinin icrasına 2012-ci ildən başlanılıb. Layihəyə əsasən, Şərur şəhərinə, Mahmudkənd kəndinə və Zeyvə kəndinin bir hissəsinə su şəbəkəsi, Şərur şəhərinə kanalizasiya şəbəkəsi çəkilib və ev birləşmələri aparılıb. Layihənin birinci mərhələsi ötən ilin dekabrında başa çatıb. Layihəyə əsasən, Arpaçay subölücüsündə gölün dibindən 6 metr dərinlikdə qalereya tikilib. Qalereyanın su sərfi saniyədə 1150 litr təşkil edir. Buradan su anbarlarına qədər diametri 900 millimetr olan plastik boru ilə 1500 metr xətt çəkilib. Xətt üzərində bir ədəd suboşaldıcı inşa olunub. Qalereyadan gələn su dezinfeksiya olunaraq su anbarlarına yığılır və öz axını ilə əhaliyə fasiləsiz ötürülür. Layihə çərçivəsində hər birinin tutumu 10 min kubmetr olan iki ədəd və tutumu 7 min 500 kubmetr olan bir ədəd, cəmi tutumu 27 min 500 kubmetr olan su anbarları tikilib. Su anbarlarından Şərur şəhərinədək 9,5 kilometr uzunluğunda xəttin tikintisi aparılıb. Sonra dövlət başçısı "Şərur şəhər və ətraf kəndlərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsinin birinci mərhələsinin açılışını bildirən düyməni basdı.

Dövlət başçısı növbəti səfərini iyunun 5-də Goranboy rayonuna və Naftalana etdi. O, səfərdə Goranboy Bayraq Muzeyinin, Dəliməmmədli-Quşçular-Fəxralı-Qurbanzadə-Alpout avtomobil yolunun açılışında iştirak etdi. Bununla yanaşı, iyunun 5-də Şəmkir-Samux-Goranboy magistral suvarma kanalının ikinci növbəsinin İpək yolu ilə kəsişmə qurğusunun və ondan sonrakı 4,95 kilometrlik hissəsinin açılışına qatıldı. Həmçinin, Goranboy rayonunda hər biri 40 meqavolt amper gücündə olan iki transformatorun quraşdırıldığı 110/35/10 kilovoltluq 2x40 MVA gücündə "Dəliməmmədli" yarımstansiyasının, eləcə də Dəliməmmədli-Muzdurlar-Qırıqlı avtomobil yolunun yenidənqurma və bərpadan sonra açılışını etdi. Goranboy rayonunda "Region Agropark"ın açılışında iştirak edən prezidentə bu haqda iqtisadiyyat naziri Şahin Mustafayev, kənd təsərrüfatı naziri İnam Kərimov və aqroparkın direktoru Sənan Qədimov ətraflı məlumat verdi. Bildirildi ki, regionların sosial-iqtisadi inkişafı dövlət proqramları çərçivəsində müxtəlif bölgələrdə ayrı-ayrı istehsal sahələri istifadəyə verilir, əhalinin sosial şəraitinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər görülür. "Region Agropark" da belə müəssisələrdən biridir. Ümumi dəyəri 30 milyon manat olan aqroparkın yaradılmasına 6 milyon manat güzəştli dövlət krediti verilib. Belə ki, Goranboy rayonunda uzun müddət istifadəsiz qalmış və yararsız hala düşmüş 3500 hektar, Samux rayonunda isə 1200 hektar



**Ziyad SƏMƏDZADƏ,**
**Akademik,**
**Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri**

# Xalqın xoşbəxt gələcəyinə xidmət edən siyasət

qış otlaq sahələrinin təyinatı Nazirlər Kabinetinin müvafiq sərəncamları ilə dəyişdirilərək əkin dövriyyəsinə cəlb edilib.

Həmin gün Naftalan şəhərinə səfər edən dövlət başçısı Şəhər Mərkəzi Xəstəxanasının açılışında iştirak etdi. Səhiyyə naziri Oqtay Şirəliyev dövlətimizin başçısına bu tibb müəssisəsində yaradılan şərait barədə məlumat verdi. Bildirildi ki, 60 çarpayılıq Naftalan Şəhər Mərkəzi Xəstəxanasının inşasına 2015-ci ildə başlanılıb və 2018-ci ilin mayında tikinti işləri başa çatdırılıb. Şəhər Mərkəzi Xəstəxanasının tikintisi Prezident İlham Əliyevin 2013-cü və 2018-ci illərdə imzaladığı sərəncamlara əsasən aparılıb. Xəstəxana 1,2 hektar ərazidə yerləşir. Tikintinin ümumi sahəsi 8 min kvadratmetrdən çoxdur. Xəstəxanada müvafiq şöbələr yaradılıb. Bu müəssisənin laboratoriya şöbəsi ən müasir avadanlıqla təchiz olunub. Bu da laborator müayinələri yüksək keyfiyyət, dəqiqlik və qısa müddətə aparmağa imkan verir. Burada, eyni zamanda, şüa diaqnostika, qəbul, inzibati, poliklinika, reanimasiya, intensiv terapiya şöbələri fəaliyyət göstərəcək. Əməliyyat bloku da müasir tibbi avadanlıqla təmin edilib. Xəstəxananın bütün şöbələrində ən müasir tibb avadanlıqları quraşdırılıb.

* * *

### Müstəqil Azərbaycan və Heydər Əliyev - 95

Prezidentin yüz günündən danışarkən, gözlər önünə təbii ki, öncə İlham Əliyevin rəhbəri olduğu ölkənin - müstəqil Azərbaycanın qurucusu və banisi, mərhum dövlət başçısı Heydər Əliyev gəlir. Çünki müstəqil Azərbaycan və onun müdrik dövlət rəhbəri İlham Əliyev Heydər Əliyevin şah əsəridir. Heydər Əliyevdən sonra Azərbaycanı müstəqillik və inkişaf yolu ilə məhz İlham Əliyev apara bilərdi və ona görə dahi siyasət və hakimiyyət ustası olan ümummilli liderimiz də məhz belə etdi, Azərbaycanı və onun sükanını etibarlı əllərə, o gəmini sağ-salamat sahilə çıxara biləcək bir kapitana - İlham Əliyevə etibar etdi. Və prezidentliyinin 100 günlüyünün ilk günlərində (imzaladığı sərəncamla) mərhum dövlət başçısı, müstəqil Azərbaycanın memarı Heydər Əliyevin anadan olmasının 95-ci illiyi yüksək səviyyədə qeyd edildi, 10 may bir daha unudulmaz bir tarixə çevrildi.

Mayın 10-da Heydər Əliyevin 95 illiyi ilə bağlı təntənəli mərasimdə çıxışı zamanı dövlət başçısı bunları dedi:

«...Heydər Əliyev dahi şəxsiyyət, uzaqgörən lider, cəsarətli insan idi. O, öz həyatını doğma xalqına həsr etmişdir. Bütün dövrlərdə xalqa ləyaqətlə, sədaqətlə xidmət etmişdir. Cəmiyyətin ictimai-siyasi quruluşundan asılı olmayaraq, Heydər Əliyev bütün dövrlərdə xalqın dəstəyini hiss edərək, Azərbaycanı inamla irəliyə aparırdı. Sovet dönəmində və müstəqillik dövründə Azərbaycan üçün, xalqımız üçün ən həlledici anlarda Heydər Əliyevin liderlik keyfiyyətləri, onun müdrikliyi, düşünülmüş siyasəti və cəsarətli addımları xalqımızı böyük bəlalardan xilas etmişdir. Xalq ona inanırdı, onu sevirdi və bütün dövrlərdə ona arxa-dayaq olmuşdur...».

O, çıxışında vurğuladı ki, biz ulu öndərin yolu ilə gedərək, güclü iqtisadiyyat qura bilmişik.

Onun qeyd etdiyinə görə, son 15 il ərzində iqtisadi inkişaf baxımından Azərbaycan qədər sürətlə inkişaf edən ikinci ölkə olmayıb.

«Bizim iqtisadiyyatımız üç dəfədən çox artmışdır. Aparıcı beynəlxalq təşkilatlar, Davos İqtisadi Forumu Azərbaycanı rəqabətqabiliyyətliliyinə görə dünyada 35-ci yerə layiq görübdür, inkişaf edən ölkələr arasında isə biz 3-cü yerdəyik. Bizim çox böyük iqtisadi resurslarımız var. Bizim valyuta ehtiyatlarımız xarici borcumuzdan 5 dəfə böyükdür. Azərbaycanda yoxsulluqla, işsizliklə mübarizə gözəl nəticələr verir. Bu böyük sosial problemlərin həlli işində böyük uğurlar əldə edilibdir. Biz energetika, nəqliyyat sahələrində tarixi layihələr icra etmişik və onların icrası davam edir. Biz ölkə daxilində enerji təhlükəsizliyi ilə bağlı məsələləri tam şəkildə həll etdik. Gələcəkdə Azərbaycanın enerji resurslarının dünya bazarlarına çıxarılması ilə bağlı böyük layihələrin başa çatması gözlənilir...», - deyərək, ölkə başçısı fikirlərini tamamladı.

Həmin gün, 10 may tarixində Milli Məclis də ulu öndərə öz dərin ehtiramını göstərərək, xüsusi iclasını ona həsr etdi.

May ayının 16-da isə ulu öndər Heydər Əliyevin 95 illik yubileyi münasibətilə Astanada Qazaxıstanın Birinci Prezident Kitabxanasında qazax dilində "Vətəninə yol açmış" adlı kitabın təqdimatı oldu. Lomonosov adına Moskva Dövlət Universitetinin tarixçi alimlərinin kollektiv əsəri olan bu kitab rus dilindən Beynəlxalq Türk Akademiyası tərəfindən qazax dilinə tərcümə edilib. Kitaba ön sözü də vaxtilə ümummilli lider Heydər Əliyevin çox yaxın



dostu olmuş Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev yazıb.

* * *

### Əfv, humanizm siyasəti dövlət siyasətinin baş xətt kimi...

Elə bu yerdəcə qeyd etmək və xatırlamaq yerinə düşər ki, mərhum Heydər Əliyev 1998-ci il yanvarın 22-də ölüm hökmünün ləğv olunması haqqında təşəbbüslə çıxış etdi. Bununla bağlı mərhum prezident Milli Məclisə müraciətində cinayət-hüquq siyasətini hərtərəfli təhlil edərək, ədalət, azadlıq, humanizm və insanpərvərlik kimi yüksək idealları rəhbər tutmaqla ölkədə ölüm cəzasının ləğv edilməsi qənaətinə gəldiyini bildirmiş, bu tarixi bəyanatın zəruriliyini əsaslandırmışdı. Milli Məclis də o zaman dövlət başçısının ölüm hökmü ilə əlaqədar təklifini dəstəkləmiş, 1998-ci il fevralın 10-da belə bir tarixi qərar qəbul etmişdi. Ölüm hökmünün ləğvi ilə Azərbaycanın adı Şərqdə ilk olaraq bu cəzanı ləğv edən ölkə kimi tarixə düşdü və bundan sonra ölkədə həm mərhum Heydər Əliyev, həm Prezident İlham Əliyev, həm də birinci vitse-przident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə əfv, amnistiya siyasətinin həyata keçirilməsinə başlanıldı. Ötən müddət ərzində dəfələrlə parlament tərəfindən amnistiya aktları qəbul olundu, əfv sərəncamları imzalandı ki, bunun da nəticəsində onminlərlə məhbus yenidən azadlığına qovuşdu, cəmiyyətə inteqrasiya etdi. Bu siyasətin davamı kimi, növbəti addım bu ilin may ayının 24-də atıldı. Dövlət başçısı növbəti əfv sərəncamını imzaladı və sonuncu əfv 634 məhkuma şamil edildi...

* * *

### Müstəqilliyimiz, Ordumuzun yüz illiyi... Hərbi Parad... Müsəlman-Şərq aləminin parlamentarizm məkanı-ünvanı...

Ümumiyyətlə, 2018-ci il xalqımızın müstəqillik tarixində ən yaddaqalan illərdən biri və birincilərdən olacaq desək, yanılmarıq, səhv etmiş olmarıq... 2018-ci il hələ başa çatmasa da, müstəqil Azərbaycan dövləti və dövlətçiliyinin tarixinə bəri-başdan qızıl hərflərlə yazılacaq və yazıldı. Çünki bu il müstəqil Azərbaycan dövlətinin tarixində çox önəmli hadisələr yaşandı və yaşanmaqdadır. Bu il ilk müstəqil Azərbaycan dövlətinin - Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) yaranmasının 100 illiyi tamam oldu. Qeyd edək ki, hələ ilin əvvələrində keçirdiyi müşavirədə, Nazirlər Kabinetinin toplantısında İlham Əliyev 2018-ci ili «Cümhuriyyət İli» elan etdi və bununla bağlı Sərəncam imzaladı. Bununla da özünün Cümhuriyyət dəyərlərinə, AXC-nin varisliyinə sədaqətini, bağlılığını bir daha ifadə etdi və bu sədaqətin, bu dəyərin nəticəsi kimi də may ayının 28-də AXC-nin yüz illiyinə həsr olunmuş yüksək səviyyəli və təntənəli qəbul mərasimini təşkil etdi.

Dövlət başçısı rəsmi qəbul zamanı çıxışında «Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması tarixi hadisədir. İlk dəfə olaraq müsəlman aləmində demokratik respublika yaradılmışdır. Biz haqlı olaraq fəxr edirik ki, bu respublikanı Azərbaycan xalqı yaradıbdır. Bu, bir daha onu göstərir ki, Azərbaycan xalqı böyük xalqdır, Azərbaycan xalqı azadlıqsevər, mütərəqqi xalqdır. Azərbaycan dövləti Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının xatirəsinə böyük hörmətlə yanaşır...», - deyərək, Azərbaycanın bundan sonra müstəqillik yollarında daha böyük əzmlə və iri addımlarla addımlayacağını vurğuladı və göstərdi ki, müstəqillikdən başqa yol yoxdur, ola da bilməz...

Bu il həm də Azərbaycan Milli Ordusunun 100 illiyi tamam oldu. 100 il öncə, iyun ayının 26-da Cümhuriyyət qurucularımız, babalarımız çox böyük bir addıma imza ataraq, Azərbaycanın ilk Milli Ordusunun yaranmasına qərar verdi. Düzdür, həmin dövlətin ömrü az olduğu kimi, müstəqil Azərbaycan Ordusunun da ömrü qısa oldu, ancaq şanlı bir tarix kimi tarixə, yaddaşlara həkk olundu və düz 73 il sonra, Azərbaycanın 1991-ci ildə ikinci dəfə müstəqiliyini əldə etməsi ilə yenidən Milli Ordu quruculuğuna başlanıldı. 1997-ci ildə mərhum dövlət rəhbəri Heydər Əliyevin verdiyi sərəncamla hər il iyunun 26-sı Azərbaycanın Milli Ordu Günü kimi qeyd olunmaqdadır, rəsmi bayramlarımız sırasında yer almaqdadır. Və bu il iyunun 26-da Milli Ordumuzun yaranma günü - 100 illiyi geniş səviyyədə qeyd olundu, ölkə prezidentinin iştirakı ilə tarixi və unudulmayacaq, yaddaşlardan silinməyəcək Hərbi Parad keçirildi. Hərbi Paradda da ölkə başçısı çox önəmli mesajlar verərək, Azərbaycan Ordusunun böyük gücə, qüdrətə malik olduğunu söylədi. Belə bir paradın - QƏLƏBƏ PARADInın tezliklə Azərbaycanın işğal altında qalan ərazilərində də keçiriləcəyini, torpaqlarımızın Ordumuz tərəfindən azad olunacağını bir daha dostlarımıza və düşmənlərimizə açıq notla bəyan etdi.

Dövlət başçısı «2016-cı ilin Aprel döyüşlərində, 2018-ci ilin Naxçıvan əməliyyatında işğalçılardan azad edilmiş torpaqlarda Azərbaycan bayrağı qaldırıldı. Bunun çox böyük mənəvi əhəmiyyəti var. Həmin o bayraqlar bu gün bu paradda, Azadlıq meydanında nümayiş etdiriləcək. Bu bayraqlar hərbiçilərimizi qabağa aparırdı. Bu bayraqlar döyüşdə olan bayraqlardır. Bu gün bu bayraqlar Azərbaycanın işğaldan azad edilmiş torpaqlarında dalğalanır və bu parad üçün buraya gətirilib... Gün gələcək və bu gün işğal altındakı torpaqlar azad olunandan sonra orada qaldırılacaq Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək. Biz bu müqəddəs günü yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq", - deyə vurğuladı.

2018-ci il həm də müstəqil Azərbaycan Parlamentinin 100 illiyidir. Bu ilin dekabr ayının 7-də müsəlman Şərq aləmində ilk dəfə yaranan parlamentin - Azərbaycan Parlamentinin 100 ili tamam olacaq. Artıq müstəqil Azərbaycan Parlamentinin 100 illiyi ilə də bağlı ölkə başçısının məlum sərəncamının ruhuna uyğun olaraq, bir sıra addımlar atılmaqdadır və Azərbaycan Parlamentindən verilən məlumatlara görə, bu ilin payızında 100 illiklə bağlı böyük təntənəli mərasim keçiriləcək, bir daha Cümhuriyyət qurucularına ehtiram ifadə olunacaq.

* * *

### Cənub Qaz Dəhlizi... TANAP-dan TAP-a...

AXC-nin 100 illiyinin səhərisi günü, may ayının 29-da Azərbaycan dövləti və xalqının tarixində daha bir tarixi an baş verdi. Avropanın və dünyanın enerji təminatında, enerji təhlükəsizliyinin təmin edilməsində əsas aktyorlardan birinə çevrilən ölkəmiz bu istiqamətdə daha bir addım atdı və çox böyük önəmə malik olan Cənub Qaz Dəhlizinin rəsmi açılışını keçirdi. Ölkə başçısının özünün və dünyanın nüfuzlu dövlətlərinin, aparıcı beynəlxalq mərkəzlərinin, iri neft şirkətlərinin, OPEK-in rəsmi nümayəndələrinin iştirakı ilə mayın 29-da Səngəçal Terminalında Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimi düzənləndi. Azərbaycan prezidentinin dərin məzmunlu nitqi tədbirin möhtəşəmliyini və perspektivliyini nümayiş etdirən əsas amil oldu. Dövlət başçısı dolğun bir şəkildə bu layihənin əhəmiyyəti və dünyaya verəcəyi töhfələri diqqətə çatdıraraq, bəyan etdi ki, "... belə nəhəng layihələri tərəfdaşlarımızla birlikdə icra edirik və Avropanın enerji xəritəsini yenidən tərtib edirik".

Həmçinin, qeyd etdi və xatırlatdı ki, məhz 4 il əvvəl bu ərazidə - Səngəçalda Cənub Qaz Dəhlizinin təməli qoyulub.

Dövlət başçısı çıxışında, eyni zamanda, «O zaman mən tam əmin idim ki, bu layihə uğurla, vaxtında icra ediləcək, baxmayaraq ki, bu, çox nəhəng və texniki-iqtisadi cəhətdən çox mürəkkəb bir layihədir. Bu layihə geniş beynəlxalq əməkdaşlıq tələb edən bir layihə idi. İlk dəfə olaraq Azərbaycan belə genişmiqyaslı beynəlxalq iqtisadi və siyasi əməkdaşlığı tələb edən layihəyə start vermişdir, onun təşəbbüskarı olmuşdur. Cənub Qaz Dəhlizinin rəsmi açılışı onu göstərir ki, biz qarşımıza qoyduğumuz bütün hədəflərə çatdıq və bu gün ölkəmizin həyatında neft-qaz sənayesinin inkişafında yeni dövr başlayır...», - dedi.

Tarixi açılış mərasimində, həmçinin ABŞ Dövlət katibinin köməkçisinin enerji məsələləri üzrə müavini xanım Sandra OUDKİRK, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma NİKOLSON, Neft İxrac Edən Ölkələr Təşkilatının (OPEC) baş katibi Məhəmməd BARKİNDO, Qaz İxrac Edən Ölkələr Forumunun baş katibi Yuri SENTYURİN, "BP Group Upstream"in baş icraçısı Bernard LUNEY çıxış etdi, Türkiyənin Azərbaycandakı səfiri Erkan ÖZORAL Prezident Rəcəb Tayyib Ərdoğanın Prezident İlham Əliyevə və Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasiminin iştirakçılarına məktubunu oxudu.

Elə həmin gün, mayın 29-da 38 ölkədən 312 neft-qaz şirkətinin iştirak etdiyi, Belarus, İtaliya və Rusiyanın isə tədbirdə milli qruplarla təmsil olunduğu XXV yubiley Beynəlxalq "Xəzər Neft və Qaz-2018" sərgisi keçirildi, sərgiyə dövlət başçısı İlham Əliyevlə birinci vitse-prezident Mehriban Əliyeva da qatıldı. Sərgi təşkilatçıları İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ilə xatirə şəkli çəkdirdilər. Sonra dövlət başçısı və xanımı sərgi və konfransın xatirə kitabını imzaladılar. Qeyd edək ki, Azərbaycanın ilk beynəlxalq ixtisaslaşmış "Xəzər Neft və Qaz» sərgi və konfransının 25 illik yubileyi münasibəti ilə nadir poçt markaları buraxılıb. Marka növlərindən birində "Xəzər Neft və Qaz" sərgisinin yubiley loqotipi və rəmzi neft platforması təsvir edilib. Digər markada isə Xəzərin sahilində Bakını təsvir edən rəsm əsərinin reproduksiyası verilib. Bundan əlavə, birinci sərgiyə həsr olunmuş poçt zərfi və xüsusi poçt ştempeli hazırlanıb. Odur ki, prezident sərgi zamanı poçt markalarına da möhür vurdu. Həmçinin, Sərgi təşkilatçıları adından dövlətimizin başçısına və birinci xanıma xatirə hədiyyələri təqdim olundu. Bununla yanaşı, İlham Əliyev "Xəzər Neft və Qaz" sərgi-konfransının 25 illiyi münasibətilə Azərbaycanın nailiyyətlərinin təbliğində və xarici ölkələrlə əməkdaşlığının möhkəmləndirilməsində xidmətlərinə görə "ITE Group Plc" şirkətinin baş məsləhətçisi Endryu Vuda və "ITE Group Plc" şirkətinin regional direktoru Strahan Edvard Corc Dankana "Dostluq" ordenini təqdim etdi. Dövlət başçısı, eyni zamanda, "Xəzər Neft və Qaz" sərgi-konfransının 25 illiyi münasibəti ilə və ölkəmizdə sərgilərin təşkilindəki xidmətlərinə görə "İTECA Caspian" şirkətinin icraçı direktoru Fərid Məmmədova "Tərəqqi" medalını təqdim etdi.

İyunun 12-də isə Azərbaycan prezidenti Türkiyənin Əskişəhər şəhərində bir sıra dövlət başçılarının da qatıldığı, TANAP - Trans-Anadolu qaz kəmərinin istifadəyə verilməsi münasibətilə təşkil edilmiş təntənəli mərasimdə iştirak etdi. Bu kəməri «yeni qan damarı» adlandıran dövlət başçısı bunun iki dost və qardaş dövlət, Azərbaycan və Türkiyənin birgə səyləri və iradəsi nəticəsində gerçəkləşdirildiyini də sözlərinə əlavə etdi.

Dövlət başçısı çıxışında «TANAP-ın istismara verilməsi Türkiyə-Azərbaycan qardaşlığının növbəti təzahürüdür. TANAP Türkiyə ilə Azərbaycanın növbəti zəfəridir. TANAP tarixi layihədir. Bu gün biz XXI əsrin enerji tarixini birlikdə yazırıq. Bu tarix işbirliyi tarixidir, bu tarix sabitlik tarixidir. Enerji layihələrimiz bölgəmizə sabitlik gətirir. Bu layihələrdə iştirak edən bütün ölkələr, bütün şirkətlər fayda görür, xalqlar fayda görür. TANAP kimi nəhəng layihənin həyata keçirilməsi Türkiyə-Azərbaycan liderlərinin birgə güclü siyasi iradəsi nəticəsində mümkün olmuşdur...», - deyərək bir daha dünyanın diqqətini Azərbaycanın önəminə çəkdi.

* * *

### İdman ölkəsi, Formula 1 və ...

Müstəqil Azərbaycanın 27 illik uğurlarından bəhs edərkən, ən önəmli məqamlardan biri kimi ölkəmizin dünyanın idman ölkələrindən birinə çevrilməsini qeyd etməmək mümkün deyil. Belə ki, xüsusilə, ölkə prezidentinin hələ 1997-ci ildə Milli Olimpiya Komitəsinin prezidenti seçilməsi ilə tənəzzül dövrünü yaşan Azərbaycan idmanına qısa müddətdə ikinci nəfəs gəlmiş oldu. Çox qısa zaman kəsiyində, 2000-ci illərin əvvəllərindən başlayaraq, Azərbaycan idman sahəsində də dalbadal böyük nailiyyətlərə imza atmağa başladı və idman ölkəsinə çevrilməyə nail oldu. Son illər Azərbaycanda nüfuzlu ilk Avropa Oyunlarının, 4-cü «İslamiada»nın, Formula 1 yarışlarının keçirilməsi Azərbaycanın idman ölkəsi yolunda necə inamla addımladığını göstərir və idmanın inkişafında, ölkəmizin çox nüfuzlu idman

# Xalqın xoşbəxt gələcəyinə xidmət edən siyasət

yarışlarına evsahibliyi etməsində dövlət başçısı ilə yanaşı, onun silahdaşı olan birinci ledi Mehriban xanım Əliyevanın da xidmətləri böyükdür və müstəsnadır. Bu baxımdan, Azərbaycan aprelin 27-29-u tarixlərində növbəti nüfuzlu yarışa evsahibliyi etdi, aprelin 29-da isə Bakıda Formula 1 Azərbaycan Qran-Prisinin əsas mərhələsinə start verildi. Həmin yarışı izləyənlər arasında Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva da vardı. Onlar birlikdə Formula 1 üzrə dünya çempionatının dördüncü mərhələsinin – Azərbaycan Qran-Prisinin əsas yarışına baxdılar. Sonra qaliblərin mükafatlandırılması mərasimi keçirildi. Azərbaycan Qran-Prisinin qalibi Luis Hamiltona kuboku İlham Əliyev təqdim etdi. Azərbaycanın birinci xanımı Mehriban Əliyeva da öz növbəsində Konstruktorlar kubokunu "Mersedes" komandasının nümayəndəsinə təqdim etdi.




* * *

## Sərəncamlar, fərmanlar, qəbullar, xarici səfərlər...

Ötən 100 gün ərzində ölkə başçınının regionların, Azərbaycan iqtisadiyyatının inkişafının, ölkə əhalisinin sosial rifahının təmin edilməsi ilə bağlı çoxsaylı sərəncam və fərmanları oldu. Bunlar arasında ən mühümlərdən biri isə, heç şübhəsiz, 2018-ci ilin dövlət büdcəsinə dəyişiklikləri və onun təsdiqlənməsini göstərmək olar. Ölkə başçısı Azərbaycan iqtisadiyyatının dayanıqlılığını təmin etmək, ölkə əhalisinin rifahını daha da yaxşılaşdırmaq üçün dövlət büdcəsinin daha iki milyard manat artırılaraq, 23 milyard manata çatdırılması ilə bağlı 2018-ci ilin büdcəsinə dəyişiklikləri nəzərdə tutan təkliflər paketini Milli Məclisə göndərdi və iyunun 29-da həmin dəyişikliklərə baxılaraq, onlara müsbət münasibət ifadə edildi. Həmçinin, dövlət başçısı tərəfindən dövlət büdcəsinə dəyişikliklər təsdiqlənərək, hüquqi qüvvəsinə mindi.

Digər mühüm addımlardan biri kimi, Azərbaycan Respublikası Dövlət Neft Fondu Müşahidə Şurasının yeni tərkibinin təsdiq edilməsi haqqında Sərəncam verildi, Baş nazir Novruz Məmmədov Şuranın sədri təyin edildi. Həmin gün, həmçinin imzalanan Bakı şəhərinin baş planının hazırlanması ilə bağlı tədbirlər haqqında Sərəncamla baş planın hazırlanması işinin təşkili üçün nüfuzlu beynəlxalq məsləhətçi şirkətin cəlb edilməsi məqsədilə 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Prezidentinin ehtiyat fondundan Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə ilkin olaraq 4,0 (dörd) milyon manat ayrılması qərara alındı.

İyunun 29-da «Elektron kənd təsərrüfatının formalaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında» Azərbaycan prezidentinin sərəncamı imzalandı, elektron kənd təsərrüfatı sisteminin inkişaf etdirilməsi üçün Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinə ilkin olaraq 2,0 (iki) milyon manat ayrıldı.

Cəmi iki gün öncə - Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması, diaspor fəaliyyətinin daha uğurlu təşkili istiqmətində daha bir addım atıldı. Ölkə prezidentinin 6 iyul tarixli sərəncamı ilə Azərbaycan Diasporuna Dəstək Fondu yaradıldı...

* * *

May ayının 27-də ölkə prezidentinin sərəncamı ilə bir qrup mədəniyyət və incəsənət işçilərinə fəxri adlar - «Xalq artisti», «Əməkdar artist», «Əməkdar incəsənət xadimi», «Xalq rəssamı» və digər fəxri adlar verildi ki, onlar arasında Murad Dadaşov, Emin Ağalarov, Teyyub Aslanov, Könül Kərimova, Elnur Zeynalov, Əlixan Səmədov, Aygün Səmədzadə və başqaları var. Həmçinin, digər sərəncamlarla millət vəkili, yazıçı-publisist Elmira Axundova «Xalq yazıçısı» fəxri adı ilə, millət vəkilləri İmamverdi İsmayılov, Rüstəm Xəlilov «Şöhrət» ordenləri ilə təltif edildi. Akademik Azad Mirzəcanzadənin, Xalq yazıçısı İmran Qasımovun yubileylərinin keçirilməsi ilə bağlı sərəncamlar verildi.

* * *

## Azərbaycanın London uğuru...

Aprelin 26-da İlham Əliyevin Böyük Britaniya səfəri baş verdi və o, səfər zamanı Boyük Britaniyanın və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Tereza Mey ilə görüşdü. Mey prezident seçkilərində qələbəsi münasibətilə İlham Əliyevi təbrik edərək, onunla görüşməkdən məmnunluğunu bildirdi və dedi ki, bu səfər iqtisadi və ticarət, enerji, təhlükəsizlik məsələlərinin müzakirəsi üçün yaxşı imkan yaradacaq. O, SOCAR ilə BP şirkəti arasında imzalanacaq sazişin əməkdaşlığın genişləndirilməsi baxımından önəmini vurğuladı. Tereza Mey Azərbaycanın Əfqanıstanda sülhməramlı əməliyyatlarda iştirakına və verdiyi dəstəyə görə minnətdarlığını bildirdi.

Prezident İlham Əliyev təbrikə görə minnətdarlığını bildirərək qeyd etdi ki, Azərbaycan ilə Böyük Britaniya arasında ikitərəfli münasibətlərin gündəliyi çox genişdir və ölkələrimiz müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, enerji, ticarət, sərmayə qoyuluşu sahələrində fəal əməkdaşlıq həyata keçirir. Dövlət başçısı bildirdi ki, hazırda ticarət əlaqələrinin genişləndirilməsi və şaxələndirilməsi istiqamətində fəal iş aparılır və bunun üçün böyük potensial var, Böyük Britaniyanın bir çox şirkətləri Azərbaycanda uzun illərdir ki, fəaliyyət göstərir, SOCAR-BP əməkdaşlığı strateji xarakter daşıyır.

İkitərəfli münasibətlərin tərəfdaşlıq əlaqələrinə əsaslandığını deyən dövlət başçısı Böyük Britaniya səfərinin əməkdaşlığın genişləndirilməsi işinə xidmət edəcəyinə əminliyini ifadə etdi. Söhbət zamanı regional inkişaf və təhlükəsizlik məsələləri də müzakirə olundu.

Sonra Prezident İlham Əliyevin və Baş nazir Tereza Meyin iştirakı ilə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti - SOCAR, "BP Exploration (Azerbaijan) Limited" şirkəti və SOCAR-ın Ortaq Neft Şirkəti arasında Xəzər dənizinin Azərbaycan sektorunda D230 perspektiv blokunun birgə kəşfiyyatı və işlənilməsi üzrə hasilatın pay bölgüsü haqqında saziş imzalandı. Sənədi SOCAR-ın prezidenti Rövnəq Abdullayev və BP şirkətinin baş icraçı direktoru Robert Dadli imzaladılar.

* * *

İyunun 9-da Azərbaycan, Bakı daha bir möhtəşəm tədbirə, Avropada Mühafizəkarlar və İslahatçılar Alyansının Bakı sammitinə evsahibliyi etdi. "Ortaq gələcəyin qurulması" mövzusunda keçirilən sammitdə dövlət başçısı İlham Əliyevin Bakı sammitinin iştirakçılarına ünvanladığı təbrik məktubu oxundu. Ondan bir gün əvvəl, iyunun 8-də isə prezident adıçəkilən Alyansın prezidenti, Avropa Parlamentinin Beynəlxalq Ticarət Komitəsinin vitse-prezidenti, Avropa Parlamentinin üzvü Yan Zahradili qəbul etdi. İlham Əliyev Azərbaycan ilə Avropa Komissiyası arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu qeyd edərək, ölkəmizlə Avropa İttifaqına üzv olan 9 ölkə, o cümlədən Çexiya ilə strateji tərəfdaşlıq haqqında saziş və bəyannamələrin qəbul edilməsi və imzalanmasının önəmini vurğuladı, sammitin Bakıya gələn çoxsaylı qonaqların Azərbaycanla daha yaxından tanış olması üçün yaxşı imkan yaradacağına əminliyini ifadə etdi.

* * *

## 3-4 iyul və 10 iyul hadisələri, PREZİDENT-XALQ HƏMRƏYLİYİ, BRÜSSEL ZƏFƏRİ!!!

Hər bir cəmiyyətdə problemlər olduğu kimi, Azərbaycan da problemlər mövcuddur və onların həlli istiqamətində ölkə rəhbərliyinin, dövlət başçısının aydın, prinsipial mövqeyi, atdığı addımlar var. Yəni, Azərbaycandakı bütün problemlər, bütün hadisələr dövlət başçının birbaşa nəzarətindədir. Bu, özünü iyulun 2-dən 3-nə keçən gecə «Azərbaycan» İstilik Stansiyasının yarımstansiyalarından birində baş vermiş qəza və onun yaratdığı fəsadların, gərginliklərin aradan qaldırılmasında bir daha göstərmiş oldu. Ölkə başçısı gecə ilə, hadisə baş verən andan prosesə nəzarəti üzərinə götürdü və onun fəsadlarının aradan qaldırılması üçün bütün dövlət qurumlarını səfərbər etdi, ayağa qaldırdı. İyulun 4-də isə ölkənin enerji sistemində yaranmış vəziyyətlə bağlı müşavirə keçirdi. Bir daha xalqı, dövləti ilə bir yerdə olduğunu nümayiş etdirdi, nöqsanlara, ciddi xətalara yol verən qurumlarla və məsul şəxslərlə bağlı güzəştsiz mövqe sərgilədiyini və sərgiləyəcəyini ortaya qoydu.

«Azərbaycan vətəndaşları bu məsələ ilə bağlı böyük məsuliyyət, böyük vətəndaş həmrəyliyi göstərmişlər. Bütövlükdə, Azərbaycan cəmiyyəti bu çətin sınaqdan şərəflə çıxa bilmişdir. Fürsətdən istifadə edərək, bütün Azərbaycan vətəndaşlarına göstərdikləri dəstəyə, anlayışa və vətəndaş həmrəyliyinə görə təşəkkürümü bildirmək istəyirəm. Bilirəm ki, vətəndaşlar bir-birlərinə kömək göstərmişlər. Bu, bir daha onu göstərir ki, Azərbaycan cəmiyyəti çox yetkin cəmiyyətdir və Azərbaycanda, sözün əsl mənasında, vətəndaş həmrəyliyi mövcuddur...», - deyərək, eyni zamanda, təəssüf hissi ilə onu da dedi ki, sadəcə bir qəza nəticəsində, demək olar ki, bütün enerji sistemi sıradan çıxdı.

Bu məsələnin çox ciddi suallar yaratdığını, onun çox ciddi araşdırılmasının vacibliyini dilə gətirdi və bildirdi ki, qəza nəticəsində bu isti havada insanlara böyük əziyyət verildi, iqtisadiyyata böyük ziyan vuruldu.

Sonra «Düzdür, həm birinci, həm ikinci dəfə operativ tədbirlər nəticəsində enerjinin verilməsi bir neçə saat ərzində bərpa edildi. Ancaq bu qəzalar baş verməməli idi. Əgər baş versəydi belə, fəsadlara gətirib çıxarmamalı idi. İndi qəzalar olur, həm bu sahədə, həm başqa sahələrdə. Dünyanın hər bir ölkəsində heç kim qəzadan sığortalı deyil. Ancaq qəza lokal xarakter daşımalıdır. Bir stansiyada baş vermiş qəza bütün enerji sistemimizə çox böyük zərbə vurdu», - deyə qeyd edərək vurğuladı ki, bu səbədən çox ciddi araşdırmalar aparılmalıdır, təqsirkarlar məsuliyyətə cəlb edilməlidir:

«Bir daha qeyd etmək istəyirəm, elə bir tədbirlər planı hazırlanmalıdır ki, gələcəkdə biz bu qəzalardan və qəzaların törədə biləcəyi fəsadlardan özümüzü qoruya bilək...».

Enerji müşavirəsinin, necə deyərlər, mürəkkəbi qurumamış, cəmi 4 gün sonra -iyulun 8-də ölkə prezidentinin sədrliyi ilə növbəti müşavirə - iclas keçirildi. Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında dövlət başçısı son 6 ayın sosial-iqtisadi yekunlarını müsbət qiymətləndirərək, islahatların sürətləndirilməsinin, dayanıqlılığın, şəffaflığın təmin edilməsinin vacib elementlərdən olduğunu dilə gətirdi. Dövlət başçısı çıxışında dedi:

«Bizim inkişafımızın təməlində həm düşünülmüş siyasət, həm güclü iradə, eyni zamanda, güclü iqtisadiyyat dayanır. Biz güclü iqtisadiyyat qura bilmişik, bu gün heç kimdən asılı deyilik, özümüz öz taleyimizin sahibiyik və iqtisadi sahədə böyük uğurlar əldə etmişik. Son 15 ilin göstəriciləri bunu əyani sübut edir. İqtisadi baxımdan 15 il ərzində Azərbaycan qədər inkişaf edən ikinci dövlət yoxdur. Hətta böhranlı illərdə də biz öz iqtisadi gücümüzü qoruya bilmişik. Deyə bilərəm ki, biz böhrandan az itkilərlə çıxa bilmişik. Bu ilin göstəriciləri isə onu deyir ki, əvvəlki illərdə apardığımız islahatlar və bu il aparılan islahatlar gözəl nəticələr verir. Mən bəzi rəqəmləri Azərbaycan ictimaiyyətinə çatdırmaq istərdim. Beləliklə, altı ay ərzində ümumi daxili məhsul 1,3 faiz artmışdır. Hesab edirəm ki, bu, yaxşı göstəricidir. Ondan daha yaxşı göstərici odur ki, qeyri-neft sektorumuz 2 faiz artmışdır. Sənaye istehsalı 1 faiz artsa da, bu da məqbul rəqəmdir. Qeyri-neft sənayemiz 8,8 faiz artmışdır. Bu, onu göstərir ki, qeyri-neft sektoruna qoyulan investisiyalar, sahibkarlara göstərilən dəstək öz bəhrəsini verir. Kənd təsərrüfatı 7,6 faiz artmışdır. Xüsusilə bitkiçiliyi qeyd etmək istərdim. Bitkiçilik 14 faizdən çox artmışdır. 67 min yeni iş yeri yaradılmışdır. Onlardan 58 mini daimi iş yeridir. Ölkə iqtisadiyyatına 6 milyard dollar sərmayə qoyulmuşdur. İnflyasiya cəmi 3 faizdir. Əhalinin pul gəlirləri 9,3 faiz artmışdır. İnflyasiyanın aşağı səviyyədə olması onu göstərir ki, ölkəmizdə makroiqtisadi sabitlik tam təmin edilir....».

Prezident çıxışında bir daha ölkədə korrupsiyaya, məmur özbaşınalığına son qoyulmasının vacibliyini dilə gətiridi, belə hallara qarşı güzəştsiz mövqe tutulacağını ifadə etdi.

* * *

Qeyd edək ki, Azərbaycanda enerji sistemində qəza baş verən günlərdə (eləcə də ondan bir neçə gün sonra) ölkədə bəzi digər narahatedici və təhlükəli hadisələr də yaşandı. Belə ki, iyulun 4-də Azərbaycanın ikinci şəhəri olan Gəncədə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev və bir nəfər polis serjantı güllələnərək, ağır xəsarətlər aldılar. Dərhal keçirilən əməliyyat tədbirləri zamanı içra başçısını və polis serjantını güllələyən şəxs, radikal dini yönümlü təşkilatın üzvü olan Yunis Səfərov həbs olundu. Ancaq həmin gün öz çirkin məqsədlərinə nail ola bilməyən və kənardan idarə edilən təxribatçı qüvvələr, terrorçular iyulun 10-da yenidən Gəncədə vəziyyəti gərginləşdirməyə, təxribatçılıq əməllərini davam etdirməyə cəhd etdilər. Həmin cəhdlərin qarşısı təxminən 30-35 dəqiqə ərzində alınsa da, iki nəfər yüksək rütbəli polis zabiti təxribatçılar tərəfindən qətlə yetirildilər. Ölkə prezidentinin 13 iyul tarixli sərəncamı ilə İlqar Məmməd oğlu Balakişiyev - polis polkovniki (ölümündən sonra) və Səməd Yunis oğlu Abbasov - polis polkovnik-leytenantı (ölümündən sonra) 2018-ci il iyulun 10-da Gəncə şəhərində ictimai asayişi kobud şəkildə pozmaq cəhdinin qarşısının alınması zamanı cəsarət və polis andına sonadək sadiqlik nümayiş etdirərək, qəhrəmancasına həlak olduqlarına görə "Azərbaycan Bayrağı" ordeni ilə təltif edildilər.

Ancaq bir daha qeyd etmək istəyirəm ki, Azərbaycanın güc, təhlükəsizlik strukturlarının şücaəti, Gəncə əhalisinin və bütövlükdə Azərbaycan xalqının birgə səyləri, dövlətlə, ölkə prezidenti ilə həmrəyliyi nəticəsində növbəti təxribat, sui-qəsd cəhdlərinin qarşısı alındı. Azərbaycan xalqı heç zaman təxribatçıların öz çirkin niyyətlərinə çata bilməyəcəyini, ölkəyə uzanan «qara əllər»in daim kəsiləcəyini və bütün anti-Azərbaycan cəhdlərinin fiaskoya uğradılacağını nümayiş etdirmiş oldu. Bu məqam ölkə başçısının iyulun 13-də respublikanın hüquq-mühafizə orqanları rəhbərlərinin iştirakı ilə keçirilən iclasında da önə çəkildi, vurğulandı. Dövlət başçısı bildirdi ki, cinayətkarlar və onların arxasında dayananlar heç vaxt öz məkrli arzularına çata bilməyəcəklər. Çünki Azərbaycan dövləti və Azərbaycan xalqı buna imkan verməyəcək.

«Bütün Azərbaycan xalqı bu qanlı cinayətləri birmənalı olaraq pislədi və bu cinayətləri törədənlərə qarşı öz nifrətini ifadə etdi», - deyən prezident onu da qeyd etdi ki, Azərbaycana qarşı müstəqillik illərində

# Xalqın xoşbəxt gələcəyinə xidmət edən siyasət

bir neçə belə cinayət törədilib, onlar niyyətlərinə çatmayıb.
"Çünki Azərbaycanda xalq-iqtidar birliyi var. Xalq-iqtidar birliyinə nə xarici, nə də hər hansı daxili qüvvə təsir edə bilər. Azərbaycanın müasir tarixi bunu sübut edir. Kim bizə qarşı çirkin niyyətlərlə hərəkət edirsə, bu niyyətlərinin qurbanı olur. Azərbaycanda təhlükəsizlik ən yüksək səviyyədə təmin edilib", - deyə dövlət başçısı sözlərinə əlavə etdi.

* * *

Dünya miqyasında tanınmış və qəbul edilmiş bir LİDER kimi İlham Əliyevin ən böyük üstünlüklərindən biri də onun baş verən hadisələr zamanı son dərəcə təmkinli, soyuqqanlı, qərarlı olmasındadır. Bu , özünü son hadisələrdə bir daha göstərdi. Konkret olaraq, iyulun 10-da Gəncədə yaşanan ağır hadisələrə baxmayaraq, ölkə başçısı həmin gecə Brüsselə səfər etməklə, daxili və xarici düşmənlərimizə, bədxahlarımıza, sözün əsl mənasında, meydan oxudu, göz dağı verdi, əzələ nümayiş etdirdi, kimsənin onu, Azərbaycan dövlətini öz yolundan döndərə bilmək iqtidarında olmadığını və olmayacağını açıq mətnlə nümayiş etdirdi. İlham Əliyev Brüsselə, NATO-nun sammitinə yolla düşərək, orada həm Zirvə toplantısında iştirak etdi, həm də bir sıra əhəmiyyətli və vacib görüşlər keçirdi. Səfər zamanı prezidentin, xüsusilə, Avropa İttifaqı Şurasının prezidenti Donald Tusk ilə görüşündə aparılan müzakirələr, eləcə də Azərbaycan ilə Avropa İttifaqı arasında "Tərəfdaşlıq prioritetləri" sənədinin paraflanması tərəflər arasında münasibətlərin yeni mərhələyə qədəm qoyduğunu deməyə əsas verir. Səfər zamanı, həmçinin dövlət başçısı NATO-nun Əfqanıstanda həyata keçirdiyi əməliyyata töhfə verən tərəfdaş ölkələrin dövlət və hökumət başçılarının və potensial əməliyyat tərəfdaşlarının iştirakı ilə Qətiyyətli Dəstək missiyası üzrə Şimali Atlantika Şurasının görüşündə iştirak etdi. Brüsseldə keçirilən Zirvə toplantısının yekununda isə NATO-nun üzv dövlətləri qəbul etdikləri kommunikedə növbəti dəfə Azərbaycan Respublikasının ərazi bütövlüyü, müstəqilliyi və suverenliyinə və eləcə də Ermənistan-Azərbaycan münaqişəsinin bu prinsiplər əsasında həllinə dəstək ifadə etdi . Bu fakt diplomatik cəbhədə Azərbaycanın daha bir uğuru, işğalçı Ermənistanın isə məğlubiyyəti hesab edilə bilər ki, burada da ən böyük xidmət yenə dövlət başçısınındır. Məhz onun mövqeyi və iradəsi sayəsində belə bir diplomatik uğura nail olundu və bu, onu deməyə əsas verir ki, Azərbaycan bundan sonra da bütün cəbhələrdə yalnız və yalnız qələbə, zəfər əldə edəcək.

* * *

## «Heydər Əliyev» ordenli İtaliya prezidenti... Paris, Paris!!!

İyulun 18-də Azərbaycan prezidenti İtaliya Respublikasının Prezidenti Sercio Mattarellanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etdi. Təkbətək və geniş tərkibdə keçirilən görüşlərdən sonra hər iki dövlət rəhbərinin iştirakı ilə sənədlərin imzalanması mərasimi oldu. "Azərbaycan Memarlıq və İnşaat Universiteti ilə İtaliyanın Milan Politexnik Universiteti arasında Anlaşma Memorandumu"nu Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru Gülçöhrə Məmmədova, Milan Politexnik Universitetinin dizayn üzrə departamentinin rəhbəri Silvia Piardi imzaladılar. "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti ilə İtaliya Dövlət Dəmir Yolları arasında Anlaşma Memorandumu"nu "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov, İtaliya Dəmir Yolları Şirkətinin beynəlxalq inkişaf üzrə vitse-prezidenti Covanni Rokka imzaladılar. "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə İtaliya Respublikasının Səhiyyə Nazirliyi arasında baytarlıq təbabəti üzrə Texniki Anlaşma"nı Azərbaycanın İtaliyadakı səfiri Məmməd Əhmədzadə və İtaliyanın Azərbaycandakı səfiri Auqusto Massari imzaladılar. "Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə İtaliya Respublikasının Təhsil, Universitetlər və Tədqiqat Nazirliyi arasında ali təhsil üzrə əməkdaşlıq barədə Birgə Bəyannamə"ni Azərbaycanın İtaliyadakı səfiri Məmməd Əhmədzadə və İtaliyanın Azərbaycandakı səfiri Auqusto Massari imzaladılar.
İyulun 18-də, həmçinin hər iki prezidentin iştirakı ilə Sumqayıt Kimya Sənaye Parkının ərazisində "SOCAR Polymer" layihəsi çərçivəsində inşa edilən polipropilen zavodunun açılışı oldu. Prezident İlham Əliyev və Prezident Sercio Mattarella tədbirdə çıxış etdilər.

**İlham Əliyev:**
*«Bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür. Bu gün Sumqayıtda yeni böyük sənaye müəssisəsinin açılışına toplaşmışıq. Bu münasibətlə sizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bu mərasimdə bizimlə bərabər İtaliya Prezidenti cənab Sercio Mattarella iştirak edir. Buna görə, cənab Prezident, Sizə minnətdaram. İtaliyanın Prezidentinin bu mərasimdə iştirakı müəssisənin əhəmiyyətini daha da artırır. Eyni zamanda, bu müəssisənin yaradılması İtaliya-Azərbaycan dostluğunun təzahürüdür. Çünki bu böyük sənaye müəssisəsi beynəlxalq əməkdaşlıq nəticəsində yaranmışdır. İtaliya şirkəti "Maire Tecnimont" bütün inşaat işlərini yüksək səviyyədə aparmış və gözəl bir əsər yaratmışdır...»*
Prezident çıxışında sonra dedi ki, polipropilen zavodunun istifadəyə verilməsi və ilin sonunda polietilen zavodunun istifadəyə verilməsi nəticəsində Azərbaycanın ixrac potensialı böyük dərəcədə



artacaq. Hər iki zavodda hər il 300 min ton məhsul istehsal olunacaq və məhsulun 70 faizi xarici bazarlara ixrac ediləcək. Beləliklə, Azərbaycan idxaldan asılılığı tamamilə aradan götürəcək və ölkəmizin böyük həcmdə qeyri-neft ixracı yaradılacaq:
«Bizim iqtisadi sahədə və sənaye istehsalı sahəsində məqsədimiz məhz bundan ibarətdir. Biz bu zavodun timsalında Azərbaycanda son illər ərzində aparılan uğurlu iqtisadi və sənaye siyasətini görürük. Ən yüksək texnologiyalara malik olan zavod bu gün fəaliyyət göstərir. Zavodda yüzlərlə iş yeri yaradılır, daha dəqiq desəm, 500-dən çox yeni iş yeri yaradılacaqdır. İdxaldan asılılıq tamamilə aradan götürülür, gözəl ixrac imkanlarımız yaradılır. Kadr hazırlığı çox yüksək səviyyədə öz həllini tapmışdır. Azərbaycanın qeyri-neft sektorunun inkişafına zavodun çox böyük dəstəyi olacaqdır. Əminəm ki, zavodun fəaliyyəti nəticəsində minlərlə, bəlkə də on minlərlə yeni iş yeri yaradılacaq. Çünki bu zavodda buraxılan xammaldan hazır məhsul istehsal olunacaq və Azərbaycan o məhsulun da idxalından asılılığı aradan götürəcək. Yəni, bu böyük sənaye müəssisəsinin timsalında biz siyasətimizi, aparılan işlərin nəticələrini görürük...»

**Sercio Mattarella:**
*«...Bu gün bu tədbirdə Sizinlə bir yerdə olmaqdan çox məmnunluq hissi duyuram. Mən bu rəsmi səfər çərçivəsində bu tədbirə qoşulmaqdan çox məmnunam. Bu cür tədbirlər İtaliya ilə Azərbaycan arasındakı münasibətlərin çox yüksək səviyyədə olduğunu göstərir. Bu, eləcə də dövlətlər və xalqlar arasında dostluğun və səmimiyyətin bir işarəsidir».*

**SOCAR-ın prezidenti Rövnəq Abdullayev:**
*«Mən bu gün italiyalı tərəfdaşımıza - layihənin baş podratçısı olan "Maire Tecnimont" şirkətinə, sahə podratçısı olan Türkiyənin "Ustay" şirkətinə, Niderlandın "Fluor" şirkətinə layihənin idarə edilməsində bizə dəstək verdiklərinə görə xüsusi təşəkkür etmək istəyirəm. "Maire Tecnimont" həyata keçirdiyimiz birgə layihələrdə özünü etibarlı tərəfdaş kimi təsdiq edib. Aparılan əməliyyatlarda nümayiş etdirdiyi yüksək peşəkarlıq və işgüzarlığı nəzərə alınaraq, "Maire Tecnimont"a Heydər Əliyev adına neft emalı zavodunda aparılan modernləşdirmə işləri çərçivəsində tikiləcək 14 yeni qurğunun baş EPC Podratçılığı həvalə olunub. "SOCAR Polymer"in əsas xammal təminatçısı olan "Azərikimya"nın yenidənqurma layihəsində də baş EPC Podratçısı - İtaliya şirkəti "Technip İtaly"dir. Əminəm ki, İtaliya şirkətləri ilə əməkdaşlığımız bundan sonra daha da genişlənəcək...»*

**İtaliyanın "Maire Tecnimont" şirkətinin prezidenti Fabrizio di Amato:**
*«Bu gün biz "Maire Tecnimont" və "SOCAR Polymer" arasında əldə olunmuş əhəmiyyətli bir nəticəni qeyd edirik. Bu münasibətlə hər iki ölkənin yüksək səviyyəli nümayəndələrinin iştirakı ilə bu gün Sumqayıt şəhərində olmaqdan şərəf hissi duyuram. SOCAR bizim şirkətin ən önəmli tərəfdaşlarından biridir. "SOCAR Polymer" isə şirkətimiz üçün uzunmüddətli əməkdaşlıqda əvəzolunmaz tərəfdaşdır. Biz şirkətimizin imkanları və texnologiyası hesabına Azərbaycanın sənaye sahəsinin inkişafına verdiyimiz töhfədən dərin məmnunluq hissi duyuruq. Biz İtaliya vətəndaşı olaraq dialoqa daim hazır olmalı və insani dəyərləri diqqətdən kənarda qoymamalıyıq. Biz, eləcə də bu layihənin Azərbaycan iqtisadiyyatına verəcəyi töhfəni çox diqqətlə izləyirik. Bilirik ki, bu layihə hesabına "SOCAR Polymer" Azərbaycanda ilk dəfə olaraq polipropilen və polietilen istehsal edəcək».*
O, həmçinin qeyd etdi ki, bu, nəinki neft kimyası sahəsində, digər sahələrdə də əməkdaşlığın başlanğıcıdır: bu zavodun tikintisində istifadə olunan texnologiyalar İtaliyanın ən müasir texnologiyalarına aid edilir:
«Bu zavod iqtisadiyyatın inkişafında və Azərbaycanın sənayesində böyük rol oynayacaq. Çünki bu zavod təbii ehtiyatlardan istifadə hesabına fəaliyyət göstərəcək. Bu layihə, bizim fikrimizcə, Azərbaycan hökuməti və eləcə də cəmiyyəti üçün mühüm mexanizmlərdən birini təşkil edir. "Maire Tecnimont" olaraq bizim Azərbaycandakı əsas məqsədimiz digər şirkətləri də buraya cəlb etmək və əməkdaşlığımızı daha da məhsuldar etməkdir...».
Həmin gün, iyulun 18-də prezidentin sərəncamları ilə Sercio Mattarella «Heydər Əliyev», qızı Laura Mattarella «Şöhrət», xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Enzo Moavero Milanesi isə «Dostluq» ordenləri ilə təltif edildilər.
İyulun 19-da ölkə prezidentlərinin iştirakı ilə Azərbaycan-İtaliya Biznes Forumu keçirildi. Həmçinin, Heydər Əliyev Mərkəzində Azərbaycan xalqının böyük oğlu, sərkərdəsi və şairi Şah İsmayıl Xətaiyə həsr edilmiş "Əbədiyyət xəzinəsi" adlı sərginin açılışı oldu. Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva, İtaliya Respublikasının Prezidenti Sercio Mattarella və qızı Laura Mattarella sərgi ilə tanış oldular. Qeyd edək ki, sərgi Heydər Əliyev Fondu, Florensiyanın Uffizi Qalereyası, Heydər Əliyev Mərkəzi, İtaliyanın Mədəniyyət və Turizm Nazirliyi və İtaliyanın ölkəmizdəki səfirliyinin dəstəyi ilə təşkil edilmişdi. Həmin gün İtaliya dövlət rəhbərinin Azərbaycana səfəri başa çatdı.
İtaliya prezidentinin səfərindən cəmi bir neçə saat sonra iyulun 19-u axşamı İlham Əliyevin Fransa prezidenti Emmanuel Makronun dəvəti ilə Parisə səfəri başladı. Səfər zamanı Azərbaycan prezidentinin Parisdə Fransa Milli Assambleyasının sədri Fransua de Rüji, Fransa Senatının sədri Jerar Larşe və Fransa Beynəlxalq Əlaqələr İnstitutunun icraçı sədri Tyerri de Montbrial ilə görüşləri oldu. Həmçinin, ölkə prezidentinin Fransanın "Naval" qrupunun sədri və baş direktoru Erve Giyu ilə görüşü baş tutdu. Görüşdə Azərbaycan ilə Fransa arasında hərbi sənaye sahəsində əməkdaşlıq haqqında müzakirələr aparıldı. "Naval" qrupunun sədri və baş direktoru Erve Giyu rəhbərlik etdiyi şirkətin fəaliyyəti barədə dövlətimizin başçısına məlumat verdi. Prezident İlham Əliyev məlumata görə təşəkkürünü bildirdi. Söhbət zamanı qeyd edildi ki, Azərbaycan ilə Fransa arasında hərbi-texniki sahədə əməkdaşlığın həyata keçirilməsi üçün yaxşı imkanlar var və hazırda Fransa tərəfi ilə konkret layihələr üzərində iş gedir.
İyulun 20-də isə Əliyevlə Makron bir araya gəldi. Prezidentlərin görüşündə aparılan müzakirələr zamanı Azərbaycan ilə Fransa arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi, energetika, ekologiya, nəqliyyat, təhlükəsizlik, mədəni və digər sahələrdə uğurla inkişaf etdiyi bildirildi, Azərbaycanda Fransız Liseyinin və Azərbaycan-Fransız Universitetinin fəaliyyət göstərməsindən məmnunluq ifadə olundu. Söhbət zamanı Azərbaycan-Avropa İttifaqı əlaqələri ətrafında fikir mübadiləsi aparıldı. Vurğulandı ki, Fransanın aparıcı şirkətləri Azərbaycanda fəaliyyətlərini daha da genişləndirməkdə maraqlıdır. Dövlət başçımız bu səfər çərçivəsində Fransanın 11 şirkətinin nümayəndələri ilə səmərəli görüşlərin aparıldığını qeyd etdi. Bu görüşlərin ölkələrimiz arasında iqtisadi əməkdaşlıq üçün böyük perspektivlərə yol açdığı vurğulandı. Prezident İlham Əliyev dedi ki, Azərbaycan ilə Fransa şirkətləri arasında 2 milyard dollardan çox dəyərində müqavilələr imzalanıb. Bu müqavilələr reallaşdırıldığı təqdirdə onların həcmi daha da artacaq. Həmçinin, enerji təhlükəsizliyi məsələsi müzakirə olundu, "Cənub Qaz Dəhlizi" layihəsinin uğurla icra edildiyi vurğulandı. Neft-qaz sektoru, infrastruktur, nəqliyyat, kosmik sənaye, hava nəqliyyatı, metro tikintisi, hərbi-texniki sahələrdə əməkdaşlıq məsələləri də müzakirə olundu. Söhbət zamanı Ermənistan-Azərbaycan münaqişəsinə də toxunuldu. İlham Əliyev bu münaqişənin həlli ilə bağlı Azərbaycanın mövqeyi barədə ətraflı məlumat verdi. Ümidvarlıq ifadə olundu ki, ATƏT-in Minsk qrupunun həmsədr ölkəsi olan Fransanın Prezidenti şəxsən bu münaqişənin həllində fəal iştirak edəcək.
Daha sonra sənədlərin imzalanması və mübadiləsi mərasimi oldu. "Azərsu" Açıq Səhmdar Cəmiyyəti və "SUEZ Group" arasında operativ təlim, know-how transfer və texniki yardım üzrə 2014-cü il tarixli Xidməti Müqaviləyə 2 nömrəli Əlavə, "Azərsu" ASC və "SUEZ Group" arasında Sumqayıt şəhərində suyun və su itkisinin idarə olunmasına dair Niyyət Sazişi imzalandı. Sonra "Azərkosmos" Açıq Səhmdar Cəmiyyəti ilə Fransa Respublikasının Milli Kosmik Tədqiqatlar Mərkəzi arasında kosmos sahəsində əməkdaşlıq fəaliyyətinə dair Çərçivə Sazişi imzalandı. Daha sonra "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti və "Thales" şirkəti arasında mülki aviasiya sahəsində sənaye əməkdaşlığı haqqında Anlaşma Memorandumu, "Azərbaycan Hava Yolları" QSC və "Modern Construction Group", "Thales" şirkəti arasında Heydər Əliyev Beynəlxalq Aeroportu üçün radiolakasiya sisteminin quraşdırılması müqaviləsi, "Azərbaycan Hava Yolları" QSC və "Thales" şirkəti arasında "Azərbaycan Hava Yolları" QSC-nin kibertəhlükəsizliyi üçün tam təhlilin hazırlanması müqaviləsi, "Azərbaycan Hava Yolları" QSC və "Thales" şirkəti arasında "Azeraeronaviqasiya" Hava Hərəkəti İdarəsində kibertəhlükəsizliyin təmini üçün tam təhlilin hazırlanması müqaviləsi və "Azərbaycan Hava Yolları" QSC ilə "Thales" şirkəti arasında uçuş heyətləri üçün inteqrasiya edilmiş brifinq sisteminin yaradılması üzrə Niyyət Məktubu imzalandı. İyulun 20-si Azərbaycan prezidentinin Fransaya tarixi səfəri başa çatdı...

* * *

## 25 il, 6 seçki və son 100 gün...

Azərbaycan tarixdə ikinci müstəqiliyini 1991-ci ilin avqustun 30-da keçmiş Ali Sovetdə (indiki Milli Məclisdə) Müstəqillik Bəyannaməsinin və oktyabr ayının 18-də Müstəqillik haqqında Kostitusiya Aktının qəbulu ilə qazansa da, əldə etsə də, onun əsl müstəqil dövlətçilik, inkişaf tarixi 1993-cü ilin iyunundan, Ümummilli Lider Heydər Əliyevin ikinci dəfə Azərbaycan xalqının təkidli tələblərindən sonra hakimiyyətə qayıdışı ilə başlayır. 1993-ci ilin iyunundan keçən 25 il ərzində də Azərbaycanda üst-üstə 6 dəfə - 1993, 1998, 2003, 2008, 2013 və nəhayət, 2018 -ci illərdə prezident seçkiləri keçirilib və hər bir seçkidə də müdrik Azərbaycan xalqı artıq boş, yalan vədlərə, saxta, populist, reallıqdan uzaq düşən siyasətbazlara deyil, sabitliyə, inkşafa, tərəqqiyə, onu yaradan, təmin edən və davam etdirənlərə səs verib. Bu sabitliyin, bu inkişafın, bu tərəqqinin yaradıcısı, banisi isə heç şübhəsiz ki, Heydər Əliyev və onun layiqli davamçısı ölkə prezidenti İlham Əliyevdir. Onlar bu seçkilərdə Azərbaycan dövləti və xalqı qarşısında nələr vəd etmişdilərsə, hamısına da bu illər ərzində bir-bir əməl etdilər, yerinə yetirilməyən vəd demək olar ki, yox dərəcəsindədir. Qarşıya qoyulan bütün hədəflər bir-bir fəth edildi. Hələ ilk prezidentliyinin andiçmə mərasimində, 2003-cü ilin oktyabrında cənab İlham Əliyev çıxışında hər bir azərbaycanlının prezidenti olacağını söyləmişdi və ötən son 15 illik dönəm, titanik fəaliyyət bir daha dövlət başçısının bu bəyanatının həyatda, reallıqda təsdiqi oldu. İlham Əliyev nəinki Azərbaycan Respublikası vətəndaşlarının, 10 milyonluq Azərbaycan əhalisinin, bütövlükdə dünyada yaşayan 50 milyondan artıq azərbaycanlının PREZİDENTİNƏ, LİDERƏ çevrildi. Bu gün dünyada Azərbaycan adlı LİDER, tolerantlıq ünvanı olan bir məmləkət və onun İLHAM ƏLİVEV kimi RƏHBƏRİ var! Odur ki, bu gün tam qətiyyətlə və böyük iftixar hissi ilə demək olar ki, bu gün Azərbaycanın dövlətinin, Azərbaycan xalqının taleyi möhkəm əllərdədir. Bu etibarlı əllər isə 25 il ərzində və son 100 günündə olduğu kimi, bundan sonra sonra da Azərbaycanı, bizləri zəfərlərdən zəfərlərə, qələbələrdən qələbələrə, uğurlardan uğurlara doğru aparacaq!

# AZƏRBAYCAN MÜHACİRƏT MƏTBUATI



Şimali Azərbaycanın mühacirət mətbuatı Azərbaycan mətbuatının mühüm qollarından biri hesab olunur. Azərbaycan mühacirət jurnalistikasının tarixi XIX əsrin sonlarından başlayır. Həmin dövrdə görkəmli şərqşünas alim, publisist, tənqidçi, ictimai-siyasi xadim Əhməd bəy Ağayev (Ağaoğ1u), böyük mütəfəkkir və ideoloq Əli bəy Hüseynzadə, yazıçı-publisist, tərcüməçi, naşir və redaktor Ceyhun bəy Hacıbəyli, Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri Məhəmməd Əmin Rəsulzadə, istiqlal şairi Məhəmməd Hadi mühacirət jurnalistikasının ilk və parlaq nümunələrini yaratmışlar.

Böyük demokrat Cəlil Məmmədquluzadənin 1921-ci ildə Təbrizdə nəşrini davam etdirdiyi «Molla Nəsrəddin» jurnalı da, əslində, başqa bir dövlətin (İran) ərazisində yayımlanan mühacir nəşr idi. Lakin, sözün əsl mənasında, mühacirət mətbuatı dedikdə, Azərbaycan Xalq Cümhuriyyəti devrildikdən sonra istiqlal mücadiləsini xaricdə davam etdirən Azərbaycanın siyasi mühacirlərinin - başda Məhəmməd Əmin Rəsulzadə olmaqla, Cümhuriyyət xadimlərinin və onların ardıcıllarının bütün XX əsr boyu - SSRİnin süqutunadək, əsasən, Türkiyədə və bəzi Qərbi Avropa ölkələrində yaratdıqları mətbuat nəzərdə tutulur.

İstiqlal mübarizəsi ideoloqlarından biri Mirzə Bala Məmmədzadənin «Milli Azərbaycan hərəkatı» (1937) əsərində göstərilirdi ki, «Yeni Qafqasya» (İstanbul, 1923-27) yalnız azərbaycanlıların deyil, rus əsarəti altınkı bütün türklərin xaricdə çıxardıqları ilk məcmuə idi.

1927-ci ildə «Yeni Qafqasya» Sovet İttifaqının Türkiyəyə təzyiqlərindən sonra fəaliyyətini dayandırdı. Lakin 1932 ilədək - Azərbaycan mühacirləri Türkiyədən çıxarılana qədər bu və ya digər adlarla öz nəşrlərini buraxmağa müvəffəq olmuşlar. Həmin müddətdə Azərbaycan mühacirləri İstanbulda «Azəri türk» (1928-30), «Yaşıl yarpaq» (1928), «Odlu yurd» (1929-31) məcmuələrini və «Bildiriş» qəzetini (1930-31) nəşr etmişlər. Həmin nəşrlərin də proqramları cüzi dəyişikliklərlə «Yeni Qafqasya»nın proqramının təkrarı idi. Jurnalda imtiyaz sahibi və məsul müdir kimi əvvəlcə Seyid Tahir, sonra Əhməd Haqqının adları göstərilsə də, əslində, nəşrə Məhəmməd Əmin Rəsulzadə rəhbərlik etmişdir.




«Yeni Qafqasya» ərəb əlifbası ilə, «Azəri-türk»ün ilk 20 sayı ərəb, növbəti 10 nömrəsi latın əlifbası, sonrakı bütün nəşrlər isə latın əlifbası ilə buraxılmışdır. İstanbul nəşrlərinin («Yeni Qafqasya», «Azəri-türk», «Yaşıl yarpaq», «Odlu yurd», «Bildiriş») müəllifləri, əsasən, M.Ə.Rəsulzadə, M.B.Məmmədzadə, A.Battal, Əbdülqədir, Ə.Z.Validi, Əli Mərdan, Ayaz İsaqi, Gültəkin, İ.Rüstəmbəyli, Ə.Cəfəroğlu, Kırımılı Cəfər Seyid Əhməd, Məmməd Sadıq, Abdulla Cövdət, Hilal Münşi, Kamal, Seyid Əhməd, M.Ağaoğlu və b. idi.

30-cu illərədək Türkiyədə mühacirlər 7 kitab (M.Ə.Rəsulzadə, «Azərbaycan Cümhuriyyəti» (İstanbul, 1923), «Əsrimizin Siyavuşu» (İstanbul, 1923), «İstiqlal məfkurəsi və gənclik» (İstanbul, 1925), «Rusiyada siyasi vəziyyət» (İstanbul, 1925), M.B.Məmmədzadə, «Azərbaycan Misaqi millisi» (İstanbul, 1927), «Ermənilər və İran» (İstanbul, 1927), şeirlər məcmuəsi: «İstiqlal uğrunda» (İstanbul, 1928)) buraxmışlar.

Paris Sülh Konfransına (1919-20) yola düşən Azərbaycan nümayəndə heyəti də nəşr sahəsində faydalı və fədakar fəaliyyət göstərmişdir. Onlar qısa vaxt ərzində Fransada 3 kitab, 12 bülleten nəşr etdirmişdilər.

30-cu illərdə azərbaycanlı mühacirlərin Türkiyədə yeganə mətbu orqanı professor Əhməd Cəfəroğlunun redaktorluq etdiyi «Azərbaycan yurd bilgisi» adlı ədəbi-nəzəri-elmi tədqiqat jurnalı (1932-34, 36 nömrə; 1954, 1 nömrə) olmuşdur. Jurnalda Azərbaycan xalqının tarixi, dili, ədəbiyyatı, mədəniyyəti, incəsənəti, coğrafıyası, həmçinin iqtisadiyyatı ilə bağlı çox sanballı materiallar, bir sıra türkdilli xalqların mədəni irsi, görkəmli xadimləri və istiqlal mücadiləsi qəhrəmanları barədə yazılar çap olunmuşdur.

Azərbaycanlı mühacirlərin xaricdə əcnəbi dildə nəşr etdikləri ilk mətbu orqan 1926-cı ildə Parisdə C.Hacıbəylinin redaktorluğu ilə buraxılan «Azərbaycan» jurnalı olmuşdur. Azərbaycanlı mühacirlər Türkiyədən çıxarıldıqdan sonra M.Ə.Rəsulzadənin redaktorluğu ilə Berlində «İstiqlal» (1932-34) qəzetini və «Qurtuluş» jurnalını (1934-39) nəşr etmişlər.

Mühacirlər 30-cu illərdə Fuad Daryalın tərtib etdiyi «Qafqaz almanaxı»nın 2 nömrəsini, «Müsavat» partiyasının 3 bülletenini və 30-40-cı illərdə Nağı Şeyxzamanlının «Biz və onlar» (İstanbul, 1934), Şəfı Rüstəmbəylinin «Yıxılan bütlər» (İstanbul, 1934), «M.Ə.Rəsulzadənin fəci süqutu» (İstanbul, 1935), M.B.Məmmədzadənin «Milli Azərbaycan hərəkatı» (Berlin, 1938), M.Ə.Rəsulzadənin «Das problem Azerbaidschan» (Berlin, 1938), Ə.Cəfəroğlunun «Azərbaycan» (İstanbul, 1940), Sənan Azərin «İran türkləri» (İstanbul, 1942), «Azərbaycan tarixindən» (Münxen, 1947), M.S.Aranın «Türkün altın kitabı «Kutadqu biliq» (İstanbul, 1944) kitablarını nəşr etdirmişlər.






*"Azəri Türk" jurnalı*

İkinci Dünya müharibəsi ərəfəsi dövrü mühacirlərin fəaliyyətində sönük və durğunluq mərhələsidir. Vermaxt öz nüfuz dairəsindəki ərazilərdə mühacirlərin bütün, o cümlədən nəşriyyat fəaliyyətinə yasaq qoyduğundan həmin dövrdə azərbaycanlı mühacirlərin fəaliyyəti xeyli zəifləyir. Lakin Azərbaycan Rabitə Heyətinin fəaliyyətə başlamasından, Azərbaycan legionerlərinin təşkilatlanmasından, xüsusilə 1943-cü ilin noyabrında azərbaycanlıların Berlində Azərbaycan Milli Birlik Mərkəzinin təşəbbüsü ilə keçirilən qurultayından sonra nəşriyyat fəaliyyəti sahəsində müəyyən canlanma əmələ gəldi. Legionerlər 1942-45-ci illərdə Berlində «Azərbaycan», «Hücum» qəzetlərini, «Milli birlik» jurnalını nəşr etmişlər.

Müharibədən sonra, xüsusilə soyuq müharibə başlanandan Azərbaycan mühacirləri yenidən təşkilatlanmağa, bolşevizmə və sovet rejiminə qarşı amansız ideoloji mücadiləyə girişdilər. 1949-cu ildə Ankarada «Azərbaycan Kültür Dərnəyi» təsis edildi. 1952-ci il aprelin 1-dən dərnəyin «Azərbaycan» adlı aylıq jurnalı nəşrə başladı. Elə həmin tarixdən də Münxendə Azərbaycan və rus dillərində Milli Birliyin orqanı «Azərbaycan» jurnalı çıxmağa başladı.


**(ardı gələn sayımızda)**



Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" layihəsi çərçivəsində çap olunub.**


# AQRAR BÖLMƏDƏ APARILAN İSLAHATLAR SAHİBKARLIQ FƏALİYYƏTİNƏ GÜCLÜ TƏKAN VERƏCƏK



**Cari il iyulun 8-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilmişdir. İclasda respublikamızda qeyri-neft sektorunun, azad sahibkarlığın və liberal iqtisadiyyatın inkişafı ilə bağlı bir sıra önəmli məsələlərdən söhbət açılmışdır.**

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev həmişə olduğu kimi, bu dəfə də öz çıxışında bazar prinsiplərinə əsaslanan respublika iqtisadiyyatında azad sahibkarlığın çəkisinin ildən-ilə artdığını vurğulayaraq demişdir: «Əlbəttə ki, iqtisadi islahatları dərinləşdirmək üçün biz sahibkarlardan böyük fəaliyyət gözləyirik. Dövlət sahibkarlığın inkişafına böyük dəstək verir. Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə sahibkarlara 2,2 milyard manat güzəştli kreditlər verilmişdir. Bu kreditlər hesabına ölkəmizdə 163 min yeni iş yeri açılmışdır. Bu il də 170 milyon manat güzəştli şərtlərlə kreditlərin verilməsi nəzərdə tutulur. Onun böyük hissəsi artıq 6 ayda verilib. Qalan hissə də veriləcəkdir. Eyni zamanda, sahibkarlara metodik tövsiyələr, məsləhətlər verilir. Dövlət qeyri-neft sektorunun inkişafına sahibkarlardan daha çox çalışır. Sahibkarlar bir qədər passivdirlər. Ona görə də dövlət bütün bu işləri öz üzərinə götürüb. Mənim tapşırığımla bir çox sərgilər, təqdimatlar keçirilir, ticarət evləri açılır. Bu proses çox geniş vüsət alacaq. İndi bir neçə ticarət evi açılıb. Məncə, Azərbaycandan kənarda onlarla ticarət evi açılmalıdır. Sahibkarlar da bu işdə fəal iştirak etsinlər. Xüsusilə, ixracla bağlı öz səylərini artırsınlar».

Ölkə başçısının sahibkarlıq subyektlərinə ünvanladığı bu fikirlər onların işgüzar fəaliyyətində dönüş nöqtəsi olmalıdır. İndiki dönəmdə çevik mexanizmlərdən yararlanmadan, keyfiyyətli məhsul istehsal etmədən, onların xarici bazarlara çıxışına nail olmadan uğur qazanmaq olmaz.

2018-ci ilin birinci yarısının yekunlarından danışarkən, öncə qeyd etmək lazımdır ki, uğurlu nəticələr çoxdur. Ölkədə həyata keçirilən ardıcıl və genişmiqyaslı islahatlar nəticəsində 6 ay ərzində ümumi daxili məhsul istehsalı 1,3 faiz, qeyri-neft sektoru 2 faiz artıb, inflyasiya birrəqəmli olmaqla 3 faiz təşkil edib. İqtisadiyyatın diversifikasiyasında mühüm çəkisi olan qeyri-neft sənayesində 8,8 faiz, kənd təsərrüfatında 7,6 faiz, informasiya və rabitə sektorunda 4,9 faiz, ticarətdə 2,6 faiz artım əldə olunub. Ötən 6 ayda dövlət büdcəsinin gəlirləri 9,8 milyard manat, xərcləri 9,5 milyard manat olub. İqtisadiyyatın və sosial sahənin inkişafına bütün maliyyə mənbələri hesabına 6,3 milyard manat investisiya yönəldilib. Əsas kapitala yönəldilən vəsaitlər qeyri-neft sektoru üzrə 22 faiz, qeyri-neft sənayesi üzrə 69 faiz artıb. Əhalinin gəlirləri 9,3 faiz artmaqla inflyasiyanı 6,3 faiz üstələyib, əməkhaqqı illik müqayisədə 4 faiz yüksəlib…

Bu dövrdə ayrılmış vəsait hesabına respublikada 200 min nəfər əhalinin yaşadığı 91 yaşayış məntəqəsini əhatə edən, uzunluğu 250 km olan 17 qəsəbə və kəndarası yollar tikilib istifadəyə verilib.

Müşavirədə qeyd olunmuşdur ki, iqtisadiyyatın əsas sahələrindən olan aqrar sektorun yeni texnologiyalar əsasında inkişafını təmin etmək məqsədilə 30 rayon üzrə 192 min hektar ərazidə ümumi dəyəri 1 milyard manatdan çox olan 45 aqroparkın yaradılması üzrə zəruri tədbirlər görülür. Aqroparklarda lazım olan infrastrukturun yaradılmasına 207 milyon manat dövlət vəsaiti yönəldilib. Bundan başqa, bu istiqamət üzrə 111 milyon manat güzəştli kredit verilib və dəyəri 564 milyon manat olan 25 layihəyə investisiya təşviqi sənədi verilib.

Aqroparkların 4-ündə birinci mərhələ üzrə işlər başa çatdırılıb, ilin sonunadək 14 aqropark istifadəyə veriləcək, digər aqroparkların yaradılması davam etdiriləcək. Artıq fəaliyyət göstərən aqroparklar və iri fermer təsərrüfatlarında 50 min hektardan artıq ərazidə müasir suvarma sisteminin tətbiqi nəticəsində buğda, arpa, dənlik qarğıdalı və digər kənd təsərrüfatı bitkiləri üzrə hər hektardan əldə edilmiş məhsuldarlıq ölkə üzrə orta göstəricidən 2 dəfə çoxdur.

İstehsalçıların texnikaya, suvarma avadanlıqlarına tələbatının ödənilməsi məqsədilə dövlət əsaslı vəsait qoyuluşu hesabına «Aqrolizinq» ASC-yə 160 milyon manat vəsait ayrılıb. Sahibkarlıq subyektlərinin maliyyə təminatını yaxşılaşdırmaq üçün 468 milyon manat geri qaytarılan vəsaitlər hesabına 611 nəfər sahibkara 100 milyon manat iri kreditlər verilib ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 1,6 dəfə çoxdur. İri sahibkarlar tərəfindən kiçik sahibkarlıq subyektlərinin dəstəklənməsi ölkə başçısının tapşırığına uyğun olaraq davam etdirilmişdir.

Belə ki, şəkər tozu istehsalçılarının yerli xammal təminatının artırılması məqsədilə 7 min hektar sahədə şəkər çuğunduru əkini üçün illik 3 faizlə 7 milyon manat güzəştli kredit verilmişdir ki, bununla əlaqədar 1600 fermerlə müqavilə bağlanmışdır. Bu müqavilələr üzrə 3600 nəfər işlə təmin olunmuşdur.

Müşavirədə diqqətə çatdırılmışdır ki, cari ilin 6 ay ərzində meliorasiya və su təchizatının yaxşılaşdırılması istiqamətində bir sıra zəruri tədbirlər həyata keçirilmişdir. Ölkənin su təhlükəsizliyində müstəsna əhəmiyyət kəsb edən Taxtakörpü və Şəmkirçay kimi iri anbarlarda 3 milyard kubmetrə yaxın su toplanmış və müxtəlif məqsədlərə uyğun istifadə olunmuşdur. Cari ildə daha 100 min hektar torpaq sahəsinin əkin dövriyyəsinə verilməsi üçün meliorativ tədbirlər davam etdirilir. Siyəzən, Xızı və Şabran rayonlarında 22 min hektar suvarılacaq torpaq sahələri aqroparklar və fermer təsərrüfatları tərəfindən dövriyyəyə cəlb edilir. Cari ildə Şabran rayonunda 12 min hektar sahədə meliorativ tədbirlər başa çatdırılacaq. Hazırda Şabran Aqroparkına məxsus 1738 hektar sahədə suvarma vəziyyəti yaxşılaşdırılıb, Xızı rayonunda isə 436 hektar sahədə salınmış zeytun və badam bağları suvarma suyu ilə təmin edilib.

Şəmkirçay su anbarı zonasında, Goranboy və Samux rayonları ərazisində yaradılmış aqroparklara məxsus torpaq sahələrinə suvarma suyunun verilməsi üçün boru kəmərlərinin və su hövzəsinin tikilməsi cari ildə başa çatdırılacaq. İyun ayının 5-də Respublika Prezidentinin iştirakı ilə Goranboy rayonunun daha 8000 min hektar və aqroparkın 4700 hektar torpaq sahəsinə suyun verilməsi təmin olunub. Gələcəkdə Şəmkir-Samux-Goranboy magistral suvarma kanalının ikinci növbəsinin 14 kilometrlik hissəsinin tikintisi, bu kanalın əsas su mənbəyi olan Kür çayı üzərindəki nasos stansiyasının gücləndirilməsi və Goranboy rayonunda 10 min hektara yaxın torpaq sahəsinə suvarma suyunun çatdırılması mümkün olacaqdır. Ötən il Araz çayının 54 kilometr uzunluğunda yeni qoluna torpaq məcrası inşa etməklə Saatlı, Biləsuvar və İmişli rayonlarında 40 min hektar yeni suvarılacaq torpaq sahələrinə suvarma mənbəyi yaradılmışdır. Cari ildə həmin kanal vasitəsilə 18 min hektar torpaq sahəsinin suvarılması mümkün olub. Abşeron yarımadasında zeytunluğun, badamçılığın və digər kənd təsərrüfatı bitkilərinin inkişaf etdirilməsi üçün Abşeron magistral kanalında yenidənqurma işləri davam etdirilir. Cari ildə, həmçinin Qax Aqroparkına məxsus 900 hektara yaxın, Şəki və Oğuz rayonlarında yaradılmış aqroparkların qoz-fındıq bağları salınacaq 12 hektar torpaq sahəsinə suvarma suyunun verilməsi istiqamətində zəruri tədbirlər davam etdirilir.

Ölkə başçısı dönə-dönə vurğulayaraq demişdir ki, aqrar bölmənin üstün mövqelərə çıxarılması dövlətin strateji hədəfidir və bunun üçün bu sahədə ən müasir texnoloji standartlar tətbiq edilməlidir. Təsərrüfatların yeni texnika ilə təchizatı ilə bağlı bir çox problemlər əsaslı şəkildə öz həllini tapıb. Ölkəyə kifayət qədər kənd təsərrüfatı texnikası və avadanlıqlar gətirilib. Keçən il 10 min ədəd texnika gətirilərək güzəştli şərtlərlə sahibkarlıq subyektlərinə verilib. Cari ildə dəyəri 160 milyon manat olan 5 mindən çox kənd təsərrüfatı texnikası alınacaq. Alınan texnika və avadanlıqlar dünyanın ən qabaqcıl şirkətlərinin istehsalıdır. Gətirilən texnikanın bir hissəsi yeni yaradılan aqroparklara veriləcək. Çünki ölkə başçısının da qeyd etdiyi kimi, aqroparklarda istehsal olunan taxıl və digər kənd təsərrüfatı məhsullarının məhsuldarlığı yüksəkdir. Taxılçılıq üzrə orta məhsuldarlıq 31 sentner təşkil edirsə, aqroparklarda bu rəqəm 45-50 sentnerdir. Məhz aqroparkların şəbəkəsinin genişləndirilməsi də bu reallıqdan qaynaqlanır. Yuxarıda da deyildiyi kimi, ölkəni başdan-başa əhatə edəcək 45 aqroparkın tikintisinə 1-1,5 milyard manat vəsait sərf ediləcək. Dövlət bu tədbirləri aqrar sahədə uzunmüddətli inkişaf strategiyasına uyğun şəkildə həyata keçirir. Məhz bu məqsədlə istehsal olunacaq məhsulların beynəlxalq standartlara uyğunlaşdırılması üçün Qida Təhlükəsizliyi Agentliyi yaradılıb. Hazırda həmin qurum ixracla bağlı problemlərin aradan qaldırılması istiqamətində əməli fəaliyyətə başlayıb. Torpaqların laborator-kimyəvi analizləri aparılır, onların münbitliyi yoxlanılır. Əsas məqsəd budur ki, öncədən torpaqlarda hansı məhsulun əkilməsini müəyyən etmək mümkün olsun. Bu isə sonucda təsərrüfatların rentabelli işləməsinə, sahibkarların yaxşı gəlir götürməsinə gətirib çıxaracaq. Yaxın bir neçə il ərzində görülən tədbirlərin real nəticələri görünəcək!


**Zülfü İLYASOV,**
**«İqtisadiyyat» qəzetinin**
**bölgə müxbiri**

# Fərdi jurnalist yazıları müsabiqəsinin qalibləri mükafatlandırılıb



İyulun 20-də «Altun Saray» istirahət mərkəzində Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Azərbaycan Xalq Cümhuriyyətinin 100-cü ildönümü və Azərbaycan Milli Mətbuatının yaranmasının 143 illiyi ilə əlaqədar elan etdiyi fərdi jurnalist yazıları müsabiqəsində birinci yerə layiq görülmüş media nümayəndələrinin mükafatlandırılmasına həsr olunmuş tədbir keçirilib.

Dövlət himninin səsləndirilməsi ilə başlayan tədbirdə dövlət və hökumət nümayəndələri, Milli Məclisin deputatları, diplomatik korpus nümayəndələri, aparıcı yerli və xarici kütləvi informasiya vasitələrinin rəhbərləri, o cümlədən Türkiyə Cümhuriyyətindən ölkəmizə işgüzar səfərə gəlmiş 50-dək media təmsilçisi və müsabiqədəqalibolmuşjurnalistləriştirakediblər.

Tədbiri giriş sözü ilə açan Fondun icraçı direktoru Vüqar Səfərli qonaqları və media nümayəndələrini salamlayaraq milli mətbuatın yaranmasının 143-cü ildönümü münasibətilə onlara səmimi təbriklərini çatdırıb. Azərbaycan mətbuatının ölkə rəhbərliyinin hərtərəfli diqqət və qayğısı ilə əhatə olunduğunu vurğulayan icraçı direktor Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2008-ci il 31 iyul tarixli sərəncamı ilə «Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi konsepsiyası»nın təsdiq edildiyini və konsepsiyadan irəli gələn vəzifələrin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradıldığını xüsusi qeyd edib.

Vüqar Səfərli Fondun fəaliyyət göstərdiyi 9 ildə mətbuatın maddi-texniki bazasının möhkəmləndirilməsi və jurnalistlərin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində reallaşdırdığı layihələr barədə məlumat verib. Qeyd edib ki, indiyədək çap mediasının maddi-texniki bazasının gücləndirilməsi məqsədilə dövlət büdcəsindən ümumilikdə 35 milyon manatdan çox vəsait ayrılıb.

Vüqar Səfərli Fondun 22 iyul - Milli Mətbuat Günü münasibətilə keçirdiyi fərdi jurnalist yazıları müsabiqəsinin nəticələri barədə də məlumat verərək bildirib ki, 19 istiqaməti əhatə edən müsabiqəyə 66 kütləvi informasiya vasitəsindən 162 yazı daxil olub. Yazılar 12 ekspert tərəfindən qiymətləndirilib, Müşahidə Şurasının qərarı əsasında daha yüksək bal toplamış 112 nəfər jurnalist qalib elan edilib: «Müsabiqənin şərtlərinə əsasən, hər istiqamət üzrə 6 mükafat nəzərdə tutulub. Ümumilikdə, qaliblərin sayı 112 nəfərdir. Birinci yerin sahibi 500, ikinci yeri tutanlar 400, üçüncü yerə layiq görülən jurnalistlər 300 manat məbləğində mükafatla təltif ediliblər. Bu gün isə müsabiqədə birinci yeri tutmuş jurnalistlər mükafatlandırılacaq».



Tədbirdə çıxış edən Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov bildirib ki, bu il Azərbaycan öz dövlətçilik tarixinin mühüm mərhələsini qeyd edir: «Biz bir müddət əvvəl Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyini qeyd etdik. Azərbaycan Xalq Cümhuriyyəti dövlətçilik tariximizin mühüm mərhələsini təşkil edir. Biz Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyini qeyd edərkən milli mediamızın da bayramını qeyd etməyi unutmuruq. Azərbaycan mediasının tarixi Azərbaycan Xalq Cümhuriyyətindən bir az da irəli gedir. Bildiyiniz kimi, 1875-ci ildə maarifçi alim, qabaqcıl ziyalı, Azərbaycan xalqının maariflənməsində, təhsilin inkişafında önəmli xidmətləri olmuş Həsən bəy Zərdabinin bilavasitə təşəbbüsü ilə "Əkinçi" qəzeti yaradılıb. "Əkinçi"yə gedən yol uzunmüddətli milli, mədəni, mənəvi inkişafın nəticəsi idi. Azərbaycan Rusiya imperiyasının tərkibində olan zaman xalqımızın maariflənməsini heç də istəmirdilər və buna görə də "Əkinçi" qəzeti cəmi iki il fəaliyyət göstərdi. Ermənilər tərəfindən Çar Rusiyasına yazılan donoslar qəzetin bağlanmasına rəvac verdi. Ancaq "Əkinçi"nin bağlanması ilə Azərbaycan mediası öz inkişafını dayandırmadı. "Əkinçi" məktəbində formalaşan ziyalılar Azərbaycan mediasının sonrakı inkişafına öz dəstəklərini verdilər».

Xalq Cümhuriyyəti süquta uğrayandan sonra Azərbaycanın Sovet İttifaqının tərkibinə daxil edildiyini bildirən Əli Həsənov deyib ki, o zaman sosializm prinsiplərinə əməl edərək imkan verilən çərçivədə mediamızı, milli-mənəvi dəyərlərimizi, maarifçiliyimizi inkişaf etdirmək məcburiyyətində qaldıq. Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dönəmində - 1978-ci ildə Azərbaycan dilinin dövlət dili elan edilməsi həmin dövrdə milli medianın inkişafına böyük təkan verdi.

Çıxışına davam edən Prezidentin köməkçisi deyib: «Müstəqilliyimizi bərpa etdikdən sonra Azərbaycanda müstəqil media nümunələri də yaranmağa başladı. 1998-ci ildə ümummilli lider Heydər Əliyev tərəfindən Azərbaycan mediası üzərindən bütün dövlət tənzimləmə mexanizmlərinin ləğv edilməsi, senzuranın aradan qaldırılması Azərbaycan milli mətbuatının yaranmasında Həsən bəy Zərdabinin xidmətləri qədər böyük əhəmiyyətə malik idi. O dövrdən başlayaraq Azərbaycan mediasında bugünkü inkişaf başladı. Bu gün Azərbaycan mediasının qabaqcıl nümunələri dünyanın istənilən media məkanında rəqabət aparmaq qabiliyyətinə malikdir. Azərbaycan jurnalistlərinin səsi nəinki ölkəmizdən, dünyanın bütün media aləmindən gəlir. Bu işdə Prezident İlham Əliyevin yürütdüyü azad media, plüralist cəmiyyət siyasətinin önəmli rolu var. Bu gün Azərbaycan mediası kifayət qədər inkişaf edib. Prezident İlham Əliyev mediaya xüsusi diqqət, qayğı göstərir. Jurnalistlərin sosial problemlərinin aradan qaldırılması, mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində Prezident İlham Əliyevin atdığı addımlar öz bəhrəsini verir».

Əli Həsənov bildirib ki, bu gün Azərbaycan və Türkiyə mediası dövlətlərimizin mənafeyini birgə müdafiə edir, birgə çıxış edirlər. Bu tədbirdə Türkiyədən olan jurnalistlərin iştirakı bunun bariz nümunəsidir.

Türkiyənin ölkəmizdəki səfiri Erkan Özoral Azərbaycan jurnalistlərini Milli Mətbuat Günü münasibətilətəbrikedib.Səfirölkələrimizarasında qardaşlıq münasibətlərinin daha da inkişafının məmnunluq doğurduğunu vurğulayıb.

Daha sonra müsabiqənin qaliblərinə diplomlar təqdim edilib. Mərasimdə Anadolu Yayımçılar Dərnəyinin sədri Sinan Burhan media sahəsində Türkiyə-Azərbaycan əlaqələrinin inkişafına verdiyi töhfəyə görə Fondun fəxri diplomu ilə təltif olunub.

Mərasim konsert proqramı ilə davam edib.




Akademik Ziyad Səmədzadə ailəsi ilə birlikdə "İqtisadiyyat" qəzetinin əməkdaşı Lamiyə Nəbiyevaya anası
**VALİDƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan İqtisadçılar İttifaqı və "İqtisadiyyat" qəzetinin kollektivi qəzetin əməkdaşı Lamiyə Nəbiyevaya anası
**VALİDƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**ALLAH RƏHMƏT ELƏSİN!**

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev

Dizayner:
Lamiyə NƏBİYEVA

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500